Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# İnsanlara hürriyyət, millətlərə istiqlal!

**28 May – Respublika Günü ilə bağlı mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**İnsanlara hürriyyət, millətlərə istiqlal!:** 28 May – Respublika Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 61 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Kim bilir neçədir dünyanın yaşı,
Tarixin nə qədər yazısı vardır.
Hər saxsı parçası, hər məzar daşı,
Nəsildən-nəsilə bir yadigardır.
*Səməd Vurğun*

Vətənimiz Azərbaycandır, ulu babalarımızın bugünkü nəsillərə Müqəddəs əmanəti – Azərbaycan! Vətən bizim tərcümeyi-halımız, şanlı keçmişimiz, bu günümüz, sabahımız, əbədiyyətimizdir. Vətən torpağı bizə candan əzizdir. Çünki bu torpağın hər qarışı yağı düşmənlərə qarşı ölüm-dirim çarpışmalarında şəhid düşmüş ata-babalarımızın qanından yoğrulmuşdur. Dünyanın ən qədim məmləkətidir vətənimiz!.. Azərbaycan – bəşəriyyətin qədim beşiyidir və eyni zamanda yer üzünün ən qədim mədəniyyət mərkəzlərindəndir. Onun tarixi ərazisinin sakinləri minilliklər ərzində yaratdıqları zəngin mədəni və yazılı abidələr əsasında öyrənilir. Azərbaycanlılar öz Vətənində olduğu kimi Qafqazda da yaşayan ən çoxsaylı etnosdur. Azərbaycanlılar dünya üzrə say etibarilə ikinci türkdilli xalqdır.

Bizim torpağımızda ömür sürmüş ən qədim insanın – Azıx adamının yaşı yüz min illərlə hesablanır. Azərbaycan torpaqlarında dünyanın 4-cü tapıntısı 350 min illik tarixə malik neandertal uyuyur. Dünyanın çox görkəmli alimləri uzun axtarışlardan sonra hamılıqla eyni nəticəyə gəlmiş, qiymətli bir xəritə yaratmışlar. Bu xəritəyə "Avropanın ən qədim sakinləri" adını vermişlər. Avropanın ən qədim sakinlərindən, dünyanın ən qədim xalqlarından biridir mənim xalqım – mənsub olduğumuz böyük Azərbaycan xalqı!

Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz

azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur. Ulu öndər Heydər Əliyevin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisi hər bir dövr üçün aktuallığını qoruyur, birliyə, həmrəyliyə, bir çağırış kimi önə çəkilir. Tariximizə 1918-ci il 18 may Azərbaycan Xalq Cümhuriyyətinin Yaranması Günü kimi daxil olmuşdur. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri qarşısına gətirən insanlar üçün, onu olduğu kimi birə-bir qələmə alan və o günü dönə-dönə oxuyub yad edən müasir dövrün insanı üçün, ümumiyyətlə, hər bir Azərbaycan vətəndaşı üçün bu şanlı tarix qiymətsiz, əvəzsizdir. Bu, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan dahi Məhəmməd Əmin Rəsulzadədir.

Şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısındakı ən böyük xidməti ondadır ki, o özünün qısamüddətli (cəmi 23 ay) fəaliyyəti dövründə xalqımızın istiqlaliyyətini elan etmiş, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə əyani şəkildə sübuta yetirmişdir.

Bu şanlı tarix – Cümhuriyyətin yüz illiyi ilə bağlı yazdığımız vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Vəsaitin "Giriş" hissəsində bugünkü günün yaranma tarixindən, ikinci hissədə isə kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

# Giriş

Hər bir xalqın, millətin sahib olduğu ən böyük sərvət onun müstəqil dövlətinin olmasıdır. Lakin müstəqillik təsadüfən qazanılmır və ya onu hədiyyə etmirlər. Müstəqilliyə gedən yol böyük mübarizələrdən keçir. Onu qazanmaq və qoruyub saxlamaq qurban tələb edir.

Azərbaycan xalqı tarix boyu yadelli işğalçılara qarşı ölüm-dirim mübarizəsi aparmış, istiqlal yolunda saysız-hesabsız şəhidlər vermiş, tarixə yenilməz şəxsiyyətlər bəxş etmişdir. XX əsrin əvvəllərində Azərbaycan xalqı özünün minlərlə cəsur oğlunun qanı-canı bahasına müstəqillik qazandı. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu, arzularının çiçək açdığı bir gündür. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində bu işıqlı may günündə arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Həmin gün Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün

vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirirdi.

Yüz il əvvəlki müstəqil Azərbaycanın taleyinə uzunömürlülük yazılmayıbmış. İlk cümhuriyyətimizin doğuluşu tarixin dolaşıq vaxtına düşmüşdü. Müxtəlif maraqlarla ölkəyə yürüş edən xarici hərbi qüvvələrin çoxsaylı təzyiqləri nəticəsində gənc dövlətin parlamenti 1920-ci il aprelin 27-də hökuməti təhvil verdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 701 günlük şərəfli ömrünə son qoyuldu. Türk dünyasının ilk müstəqil dövləti süquta uğradı.

1918-ci ilin mayından 70 il keçəndən sonra Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını-azadlığını, müstəqilliyini və bütövlüyünü tələb etdi. Bu yolda məhrumiyyətlərə düçar edildi, şəhidlər verdi, lakin yolundan dönmədi. 1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. Müstəqilliyi və qanı bahasına alınmış azadlığı qorumaq yolunda xalqımız nə qədər təzyiqlərə məruz qaldı, torpaqlarımız qəsb olundu, taleyimizdən didərginliyin, əlilliyin, şəhidliyin qara naxışları keçib getdi. Lakin azadlıq aşiqlərinin gərgin əməyi və mübarizəsi sayəsində əsrin sonunda Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mümkün oldu.

1918-ci il 18 may Azərbaycan Xalq Cümhuriyyətinin Yaranması Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, səhnəciklər, oxucularla söhbət, icmal, kompozisiya və s. keçirilə bilər. Həmin günü unutmamaq və gənc nəslə, eləcə

də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: “Bir kərə yüksələn bayraq bir daha enməz”,  “Vətən üçün yaşayanlar yaşadırlar bu torpağı”, “Türkün bir yolu var: Hürriyyət və İstiqlal”, “Ulularımızın müqəddəs əmanətidir – Vətən”, “M.Ə.Rəsulzadənin Azərbaycançılıq ideyası”, “Sən bizimsən, bizimsən, durduqca bədəndə can, Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan”, “Türk qafalı cəsur adamlar”, “İnsanlara hürriyyət, millətlərə istiqlal!”, “Azərbaycanın istiqlal yolu”, “Azadlığın mübarək!”, “İstiqlal uğrunda”, “Millət yoludur, haqq yoludur tutduğumuz yol, Ey haqq! Yaşa, ey sevgili millət, yaşa, var ol!”, “Azərbaycan istiqlalı yolunda can verən şəhidlər unudulmaz”, “Çağdaş Azərbaycan”, “Azərbaycanın hürriyyət şərqiçiləri”, “Mənim azadlığım”, “Əsrimizin Səyavuşu” və s.

# Kitab sərgisi


















**Görkəmli şəxsiyyətlərin Azərbaycan Xalq Cümhuriyyəti haqqında söylədikləri fikirlər:**

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük bir iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması, Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətləridir.

***

Onlar həqiqətən öz xalqı, milləti qarşısında böyük qəhrəmanlıq nümunələri göstəriblər. Xalq Cümhuriyyətinin yaradıcıları Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Xalq Cümhuriyyətinin hökumətinin üzvləri Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstəriblər.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının ümummilli lideri*

Zaman ağır, keçəcəyimiz yol tikanlı və əzablıdır. İrəlidə olan bir çox müşkülləri və maneələri də nəzərə almalıyıq. Bu maneəli yollarda... firqə etirasları, şəxsi qərəzlər və bütün bu kimi vətən

və millət qayəsi qarşısında səfil qalan qərəzlər atılmalı, vətən qayəsi və millət duyğusu hər şeydən yüksək tutulmalıdır.

**M.Ə.Rəsulzadə,**
*Dövlət xadimi*

Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir.

**Şeyx Məhəmməd Xiyabani,**
*Mütəfəkkir, siyasətçi*

## Keçiriləcək tədbirlər

***Şeir müsabiqəsi*** – 1918-ci il 18 may Azərbaycan Xalq Cümhuriyyətinin Yaranması Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***"Vətən haqqında bir az"*** adlı *şeir müsabiqəsidir*. Kitabxanaçı ilk olaraq mövzu ilə bağlı bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır.

***Kitabxanaçı:*** 28 May Respublika Günü – Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür. Azərbaycan Demokratik Respublikasının elan edilməsi milli tariximiz üçün çox əhəmiyyətlidir. O zaman Rusiyada baş vermiş inqilablar imperiyanı dağıtmışdı. Belə bir şəraitdə ya öz müstəqilliyini elan edib milli dövlətini yaratmalı, ya da hansısa dövlətin müstəmləkəsinə çevrilməli idik. Yeganə yol Azərbaycan Demokratik Respublikasının elan edilməsi idi. XIX əsrin əvvəllərində itirilmiş milli-dövlətçiliyin bərpası faktı millətin

taleyində mühüm hadisə kimi təqdirəlayiq idi. ADR qısa vaxtda öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. Tarixi faktlar da təsdiqləyir ki, Azərbaycan Demokratik Respublikası bu dövrdə yaranmış milli respublikalar içərisində ən demokratik dövlət idi. Azərbaycanda yaşayan bütün xalqlar və siyasi partiyalar parlamentdə təmsil olunurdu. Digər tərəfdən ADR ənənəvi tarixi ərazilərimizə sahib durmuşdu. Eyni zamanda Azərbaycanın milli sərvətlərindən xalqımızın mənafeyinə uyğun istifadə edilirdi. ADR-in müstəqilliyinin elan olunmasından 23 ay sonra – 1920-ci ilin aprelində xarici təcavüz nəticəsində beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq dünya ölkələri tərəfindən tanınmış suveren dövlət – Azərbaycan Demokratik Respublikası zorla, silah gücünə devrildi. Hakimiyyət rus imperiyası tərəfindən qəsb edildi. Lakin ruhu azad olan bir milləti heç kəs köləlikdə saxlaya bilməz. 1991-ci ildə Sovet İmperiyası çökmə həddinə çatdı. Azərbaycan həmin ilin oktyabrın 18-də öz müstəqilliyini bərpa etdi. 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinəşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda xalqın çağırışı ilə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gətirildi və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Çiçəklənmə, iqtisadi inkişaf dövrü başlandı. Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarix, bu illər ərzində xalqın həyatının bütün sahələrində baş verən dirçəliş müasir müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaranmış, elmi

əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlanmışdı. Uzaqgörən liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin mayında həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb. Bütün mənalı həyatını öz xalqına bəxş edən Ulu Öndərin qurucusu olduğu müstəqil Azərbaycan getdikcə daha da inkişaf edəcək, qurucusunun adını əbədi yaşadacaq.

*Kitabxanaçının çıxışından sonra iştirakçılar bir-bir şeirlərini demək üçün səhnəyə yaxınlaşırlar. I iştirakçı Nizami Paşa Saraçlınının "Millətin istiqlal marşı" adlı şeirini deməyə başlayır.*

Enməz ucalardan, ucaltdığım Al bayraq,
Sönməz Atəşkahdan püskürən şanlı ocaq,
Millət torpağı şəhid olub qucacaq,
Bir duy, haqq bağırır, o Qəhrəman xalqımız,
Baş qoy bu ərkana, bu yol bizim haqqımız.

Türkün bir yolu var: Hürriyyət və İstiqlal,
Unama, kimsəyə saldıra, etməz xəyal,
Bir bax, indi tutdum, ovcumdadır İstiqbal,
Bir duy, haqq bağırır o Qəhrəman xalqımız,
Baş qoy bu ərkana, bu yol bizim haqqımız...

*II iştirakçı Cəmilə Əliyevanının "28 may" adlı şeirini deməyə başlayır.*

Zülmün zəncirini qırıb ataraq
Qəsbkara məzar qazdıq biz bu gün.
İstiqlal sözünü qızıl hərflə
Tarix kitabına yazdıq bu gün.

Elimiz qurtardı asılılıqdan,
Azad bir dünyaya çıxdıq biz bu gün.
Qoyub  təməlini xoş gələcəyin,
Günəşin əlini sıxdıq biz bu gün.
Qəhrəman xalqımız qalxdı ayağa,
Yollar səadətə salındı bu gün.
Üçrəngli bayrağı qaldırdı göyə,
İstiqlal nəğməsi çalındı bu gün.

Hayana baxıram toydur, bayramdır
Şanlı Azərbaycan elində bu gün.
Yaddan qorxumuz yox, al bayrağımız
Komandan Heydərin əlində bu gün!

*III iştirakçı Ələkbər Sadiqin "Azadlığın mübarək!" adlı şeirini deməyə başlayır.*

Ulu tanrım, ey mənim haqq olanım,
Əsarətin zəncirini qırıb atdım.
Sən vermisən, azadlığdır mənim haqqım.
Dodaqlarım titrəyərək,
Azərbaycan, Azərbaycan söylədi.
Vətən oğlu, Vətən eşqi nə gözəldir.
Torpağına and içərək,
Ləyaqətli bir övladtək
Gəlin birgə söyləyək:

Azərbaycan, azadlığın mübarək!

Azadlıq verilmədi, azadlığı biz aldıq,
Əvəzində şəhid olmuş
Oğulları qazandıq.
Onlar vətən yolunda canlarından keçdilər.
Azadlıq şərbətini
Bizlərə içirtdilər.
Ürəyində eşq atəşin yandır görək,
Bu torpağa ehtiramla baş əyək.
Gəlin birgə söyləyək:
Azərbaycan, azadlığın mübarək!
Mən Təbrizdən, Bakıdan Ərdəbildən  gəlmişəm,
Mən Sarabdan, Gəncədən, Qarabağ, Əlincədən
Dəmirqapı Dərbəndən gəlmişəm.
Azadlığım uğrunda
Yüzminlərlə şəhid oğul vermişəm.
Qalx ayağa, mənim ulu millətim,
Bir yumruqtək birləşək,
Şəhidlərin  məzarına  and içək.
Gəlin birgə söyləyək:
Azərbaycan, azadlığın mübarək!..

*IV iştirakçı İsmayıl İmanzadənin "Gerbim, Himnim, Bayrağım" adlı şeirini deməyə başlayır.*

Sərvətimdi, varımdı,
Yenilməz vüqarımdı
Andım, ixtiyarımdı

Gerbim, Himnim, Bayrağım.
Varlığımdır, səddimdir,
Basılmaz sərhəddimdir.
Səsim, imzam, xəttimdir.

Gerbim, Himnim, Bayrağım.

Kəpəzdi, savalandı,
Ürəyimdəki qandı,
Anam Azərbaycandı!
Gerbim, Himnim, Bayrağım...

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra isə qalib və digər iştirakçılara mükafat verilir.*

***Konfrans*** – 1918-ci il 18 may Azərbaycan Xalq Cümhuriyyətinin Yaranması Günü ilə əlaqədar olaraq, kitabxanada keçiriləcək tədbirlərdən biri də *"Azərbaycanın hürriyyət şərqiçiləri"* adlı *konfransdır*. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, tarixçilərin, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı iştirakçıların 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin – Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqaları haqqında çıxışları dinlənilir.

*I iştirakçı "Amalına və əməlinə sadiq insan" adlı çıxışında Əlimərdan bəy Topçubaşov haqqında söhbət açır.*

***I iştirakçı*:** Əlimərdan bəy Ələkbər oğlu Topçubaşov Azərbaycanın görkəmli siyasi xadimi olmuşdur. Çar Rusiyasında Birinci Dövlət Dumasının üzvü (1905), Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin

üzvü (1917), Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Sədri (1918-1920) idi.

Əlimərdan bəy Topçubaşov 1863-cü ildə Tiflis şəhərində qulluqçu ailəsində dünyaya gəlmişdir. İlk təhsilini I Tiflis gimnaziyasında almış və 1884-cü ildə oranı müvəffəqiyyətlə bitirərək Peterburq Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuşdur. Lakin birinci semestrdən sonra o, hüquq fakültəsinə keçmiş və 1888-ci ildə oranı müvəffəqiyyətlə bitirərək hüquq elmləri namizədi adını almışdır. Peterburq Universitetinin hüquq fakültəsinin Elmi Şurası Ə.Topçubaşovun mülki hüquq kafedrasında saxlanması və professor vəzifəsi almaq üçün hazırlaşması haqqında qərar qəbul etmişdir. Lakin bu qərar yalnız Əlimərdan bəy Topçubaşov provaslavlığı qəbul etdikdə qüvvədə ola bilərdi. Əlimərdan bəy Topçubaşov provaslavlığı qəbul etməkdən imtina etdi və universitet haqqında çar qanunu xristian olmayan Ə.Topçubaşova müvafiq vəzifəni tutmağa icazə verməmişdir. Ə.Topçubaşov bu hadisədən sonra Tiflisə gələrək məhkəmədə, vəkil vəzifələrində çalışmış, Tiflis geodeziya məktəbində hüquqdan dərs demişdir.

O, 1897-ci ildən 1917-ci ilin axırlarına kimi "Kaspi" qəzetinin yaradıcılarından və redaktorlarından biri olmuşdur. Bu illərdə onun yüzlərlə məqalələri dərc edilmişdir. Həmin məqalələrdə Ə.Topçubaşov Azərbaycanın bir neçə şair, yazıçı, dramaturq, görkəmli ziyalıları və şəxsləri haqqında elmi əhəmiyyətli, nəzəri, Rusiya imperiyasında yaşayan müsəlmanların vəziyyəti, çarizmin ayrı-seçkilik siyasətini pisləyən publisistik məqalələrlə çıxış etmişdir.

Ə.Topçubaşov jurnalistliyə başladığı dövrdən Bakının siyasi və ictimai mübarizə səhnəsinə daxil olmuş, ömrünün sonuna kimi bu mübarizənin ön sıralarında getmiş və onun başçılarından birinə çevrilmişdir. 1905-1907-ci illər rus inqilabı dövründə

Azərbaycanın bir çox ziyalısı, o cümlədən Ə.Topçubaşov xalqın azadlıq mübarizəsinə qoşulmuşdur. O bu dövrdə çar hökumətinə zəhmətkeşlərin mənafeyini müdafiə edən bir sıra petisiyalar yazmış, iclas, yığıncaq, mitinqlərdə çıxış etmiş, Bakı Dumasının üzvü, sonralar sədri olmuş, Rusiyada yaşayan müsəlmanların vahid təşkilatının – "İttifaqi-əl-Müslimin" yaradılması və fəaliyyətində iştirak etmiş, onun proqram sənədlərini tərtib etmiş, Nijni-Novqorodda, Sankt-Peterburqda keçirilmiş I-IV qurultaylar demək olar ki, onun sədrliyi ilə keçmiş, "İttifaqi-əl-Müslimin" qurultaylar tərəfindən seçilmiş MK-nın daimi bürosunun üzvü olmuşdur.

1905-ci ilin sentyabrında çarizm Bakı proletariatını inqilabi mübarizədən çəkindirmək məqsədilə neft sənayeçiləri ilə fəhlə nümayəndələrinin müşavirəsini keçirməyə icazə verdi. Müşavirəyə nümayəndələr göndərmək üçün seçkilər keçirildi. Müşavirəyə seçilən nümayəndələr arasında Ə.Topçubaşov da olmuşdur. Müşavirə sentyabrın 30-da Sankt-Peterburqda açılmış və Ə.Topçubaşov müşavirədə Bakı fəhlələrinin acınacaqlı vəziyyəti haqqında məlumat verərək onların mənafeyini müdafiə etmişdir. Rusiyada zəhmətkeşlərin inqilabi mübarizəsinin getdikcə qüvvətləndiyindən qorxan çarizm 1905-ci ilin dekabrında Dövlət Dumasına seçkilər haqqında qanun çıxardı. 1906-cı ilin mart-aprel aylarında Bakı və Yelizavetpol quberniyalarında ilk dəfə olaraq Dövlət Dumasına seçkilər keçirildi.

Azərbaycandan Birinci Dövlət Dumasına İsmayıl xan Ziyadxanov, M.Əliyev, Ə.Xasməmmədov və b. yanaşı Ə.Topçubaşov da seçilmişdir. 1906-cı il aprelin 27-dən iyulun 8-nə qədər Sankt-Peterburqda Birinci Dövlət Duması fəaliyyət göstərmişdir. Ə.Topçubaşov Dumada müzakirə edilən bir sıra məsələlərin müzakirəsində iştirak etmiş, hökumətin aqrar və

köçürmə siyasətini pisləmiş, Rusiyadakı azsaylı xalqlara, əsasən müsəlmanlara muxtariyyət verilməsi tələbinin tərəfdarı olmuşdur. Dövlət Dumasında Rusiyanın müsəlman əyalətlərinin deputatları bilavasitə Ə.Topçubaşovun başçılığı ilə Müsəlman fraksiyası yaratmışlar. Çar hökuməti onun fəaliyyətini tənqid edən inqilabi mövqeli Dumanı 72 gündən sonra qovdu. 200-ə yaxın deputat Dumanın qovulmasına etiraz edərək 1906-cı il iyulun 9-10-da Vıborqda iclas keçirdilər və "Vıborq müraciətnaməsi"ni qəbul etdilər. Bu müraciətnaməni imzalayanlardan biri də Əlimərdan bəy Topçubaşov olmuşdur. Ə.Topçubaşovun siyasi və ictimai fəaliyyəti 1917-ci illər Fevral inqilabından və Oktyabr çevrilişindən sonra daha da genişlənmiş və o, Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəyə var qüvvəsi ilə qoşulmuşdur.

1917-ci il martın 5-də Bakıda İctimai təşkilatların Şurası və onun İcraiyyə Komitəsi yaradıldı. Məmmədhəsən Hacınski, İ.Frolov, İ.Heydərov və b. ilə yanaşı Ə.Topçubaşov da Komitənin tərkibinə daxil oldu. İyul ayında isə Komitənin 33 nəfərdən ibarət yeni heyət təşkil olundu. Ə.Topçubaşov yeni Komitənin sədri seçilmişdir. 1917-ci il martın 29-da Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi. Onun tərkibinə Məhəmməd Əmin Rəsulzadə, Məmmədhəsən Hacınski, Ə.Topçubaşov və b. seçildi. Bu təşkilatın rəhbərlərinin gərgin əməyi və fəaliyyəti nəticəsində 1917-ci il aprelin 15-20-də Bakıda Ümumqafqaz müsəlmanlarının qurultayı çağırıldı. Qurultay Ə.Topçubaşovun sədrliyi altında keçdi. O, sədr kimi ilk çıxışında çar hökumətinin xalqlara qarşı apardığı zidd siyasəti pisləyərək dedi ki, köhnə rus hökumətinin Rusiyada yaşayan qeyri-rus xalqlara münasibətdə yeritdiyi siyasət parçalamaq siyasəti olmuşdur, bu vaxtilə ermənilər və müsəlmanlar arasında özünü göstərmişdir.

1917-ci il avqustun 12-15-də Moskvada Dövlət müşavirəsi çağırıldı. Müvəqqəti hökumətin çağırdığı bu müşavirəyə Rusiyanın müxtəlif yerlərindən gəlmiş 34 müsəlman nümayəndə arasında Azərbaycan nümayəndəsi – Ə.Topçubaşov da var idi.

Avqustun 13-də Moskva müşavirəsinin müsəlman nümayəndələrinin iclası keçirildi. Burada müşavirədə çıxış edəcək nümayəndənin məruzəsini hazırlayacaq komissiya təşkil edildi. Komissiya məruzəni hazırlamağı və nitq söyləməyi Ə.Topçubaşova tapşırdı. Ə.Topçubaşov müşavirədəki nitqində qeyd etdi ki, Rusiyada yaşayan müsəlmanlar çarizmin devrilməsini alqışlayır, hər yerdə demokratik əsaslarla yaranmağa başlamış ictimai və siyasi təşkilatları, inqilabi nailiyyətləri-azadlıq, bərabərlik və qardaşlığı qoruyur və möhkəmləndirirlər. 1917-ci il sentyabrın 5-6-da və 12-də Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin növbəti iclası çağırıldı. İclasda Komitənin sədri Ə.Topçubaşov, sədrin müavinləri Məhəmməd Əmin Rəsulzadə və Fətəli xan Xoyski seçildi. Oktyabr-noyabr aylarında isə Ə.Topçubaşov ümumi seçki hüququ əsasında Bakı Şəhər Dumasına keçirilmiş seçkilərdə iştirak etmiş və Dumaya üzv seçilmişdir.

Ə.Topçubaşov 1918-ci il 30 mart - 1 apreldə Bakıda bolşevik və daşnakların sovet hakimiyyətini müdafiə bayrağı altında azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğın zamanı onun tezliklə yatırılmasına çalışanlardan, aprelin 1-də A.Caparidzenin başçılıq etdiyi "sülh konfransı" nın iştirakçılarından və İnqilabi Müdafiə Komitəsinin tələblərini qəbul edənlərdən biri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük sevinclə qarşılayan Ə.Topçubaşov Fətəli xan Xoyskinin 1918-ci ilin iyununda təşkil etdiyi II kabinədə portfelsiz nazir, oktyabrında isə xarici işlər naziri vəzifəsinə təyin edilmişdir.

AXC yarandığı gündən etibarən bir hüquqşünas alim kimi onun dünya ölkələri tərəfindən tanınması, diplomatik əlaqələrinin yaranması sahəsində var qüvvəsilə çalışmışdır. Azərbaycan hökuməti Osmanlı imperiyası və onun vasitəsilə Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə Ə.Topçubaşovu fövqəladə səlahiyyətli nazir kimi İstanbula göndərmişdir. F.Xoyskinin o dövrlərdə İstanbulda olan Azərbaycan nümayəndəliyinin sədri Məhəmməd Əmin Rəsulzadəyə göndərdiyi teleqramda oxuyuruq: "Hökumətin 1918-ci il 20 avqust qərarı ilə Azərbaycan hökumətinin üzvü Əlimərdan bəy Topçubaşov Osmanlı imperator hökumətinə Azərbaycan Respublikasının mənafeyinə aid bütün məsələlər üzrə fövqəladə səlahiyyətli nazir kimi göndərilir".

Ə.Topçubaşov Türkiyəyə gəldikdən sonra qısa müddətdə, yəni 1918-ci ilin oktyabr-noyabr aylarında Osmanlı sultanı, bir neçə nazir və diplomatla görüşmüş, onlara Azərbaycanın siyasi və iqtisadi vəziyyəti haqqında məlumatlar vermiş və müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Mudros müqaviləsinin Azərbaycana aid hissəsi ilə əlaqədar olaraq Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası vermişdir. O, göstərirdi ki, müqavilə "Azərbaycanın işğalını asanlaşdırır və bu, ölkəni təhlükə qarşısında qoyur… Azərbaycan Respublikasına məxsus olan dəmiryollarının xarici dövlətə güzəştə gedilməsi beynəlxalq hüquqla bir araya sığmır".

Əlimərdan bəy Topçubaşov 8 noyabr 1934 cü ildə Paris ətrafında, vəfat etmişdir. Onun məzarı Sen Klu şəhər qəbiristanlığında yerləşir.

*II iştirakçı "Türk qafalı Cəsur adam" adlı çıxışında Əhməd bəy Ağaoğlundan söhbət açır.*

**II iştirakçı:** "...O, heysiyyətli və möhtəşəm bir mütəfəkkir, mərd və cəsur mübarizə adamı, professor və maarifçi, usta

qəzetçi yazar, dürüst siyasətçidir. Hürriyyət və demokratiya aşiqi bir insan, milliyyətçi və inqilabçı ziyalı, vəfalı dost, gözəl ailə başçısı və şəfqətli atadır. Yəni insanlığın bütün üstün cəhət və məziyyətlərini öz simasında toplamış böyük insan, heykəlləşmiş şəxsiyyətdir. Əhməd bəy Ağaoğlu türk və qəzetçi yazar olaraq yüz illərlə içimizdə yatan milliyyət şüurunu oyandırmaq üçün səsi gəldikcə bağırdı. O, insanlığın az rastlaşdığı zənginliklərdəndir. Alimdir, jurnalistdir, mübarizdir, olduqca zəki biridir. Bunların hamısını bir yana qoyuram, o, insandır, bütövləşmiş bir insan. Əhməd bəy Ağaoğlu türk dünyasının, xüsusən də Azərbaycan türklərinin bütün dövrlərdə minnətdar olacağı bir insan". Əhməd bəy Ağaoğlu haqqında bu fikirlərin müəllifləri türk tədqiqatçı alimləri, ictimai-siyasi xadimləri – Fəxrəddin Gülsevən, Peyami Səfa və Şükufə Nihaldır.

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Azərbaycanın Şuşa şəhərində dünyaya gəlib. Atası Mirzə Həsən varlı pambıqçı fermer, anası Tazə xanım Şuşanın Sarıcı Əli nəslindən Zeynalabdin bəy Rəfibəyovun bacısıdır.

1888-ci ildə Parisə gedən Əhməd bəy burada məşhur fransız şərqşünasları Ernest Renan və professor Ceyms Darmestete ilə tanış olur. Əhməd bəy bu illərdə Sankt-Peterburq və Parisin məşhur Sorbonna universitetlərində təhsil alır. Beş dilə mükəmməl şəkildə yiyələnən Əhməd bəy o zaman həm yerli, həm də əcnəbi mətbuatda maraqlı məqalələrlə çıxış etməyə başlayır.

1894-cü ildə Qafqaza, fransız dilini tədris etmək məqsədilə qayıdan ədib tezliklə Bakıya köçür. Fransada təhsil aldığı dövrdə Avropa demokratik ideyalarından və fransız şərqşünas alimlərinin əsərlərindən təsirlənən Əhməd bəy tezliklə

Azərbaycan xalqının milli özünüdərketmə və türkçülük ideyalarının yayılması işinə başlayır.

Əhməd bəy əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsili inkişafından keçdiyini bildirirdi. Qadın azadlığı ideyalarını yayan və bunu azadlıq mücadiləsinin əsas faktoru kimi göstərən Ağaoğlu Azərbaycan ziyalıları arasında qadına bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan idi. 1901-ci ildə çapdan çıxan “İslam dünyasında qadın” adlı kitabında “azad qadınsız milli inkişaf ola bilməz” fikrini sübuta yetirir. Əhməd bəy Ağaoğlunun bu arzu və ideyaları tezliklə reallığa çevriləcəkdir. 1918-ci ildə qurulmuş Şərqdə ilk demokratik cümhuriyyət Azərbaycan Demokratik Cümhuriyyətində o dövr nəinki şərqin, hətta qərbin ABŞ və Böyük Britaniya kimi qabaqcıl dövlətlərinə nümunə olacaq bir hadisə – Azərbaycan qadınına seçkilərdə səsvermə hüquqlarının verilməsi ilə Əhməd bəyin ideyaları gerçəkləşir. Ə.Ağaoğlu Transqafqaziya seyminə keçirilən seçkilərdə müsəlman fraksiyasından üzv seçilir və bu müddətdəki fəaliyyəti ilə 1905-ci ildə etnik erməni-müsəlman qarşıdurmalarının qarşısının alınmasında böyük rol oynamışdır. Bir qədər sonra onun millətçi fikirlərindən və sosial inqilabi düşüncələrindən təşvişə düşən erməni daşnaklarının təhdidlərinə cavab olaraq “Difai” adlı özünümüdafiə təşkilatı yaradır.

1904-cü ildə “Bir xanım” imzası ilə “Şərqi-Rus” a göndərilən məktubda müəllif Qurandakı “ən-Nisa” surəsinin 31-ci ayəsinin məzmununu “nəfsi haramdan pak saxlayıb pis niyyətlərdən və murdar fikirlərdən uzaq və təmiz olmaq” kimi mülahizə edib, yazırdı: “Zahiri baxmaq, ya baxmamaq şərt deyil. Şərt batili təmiz saxlamaqdır… Allah taala dünyanı yaradıb, onu özünün gözəl və xoş məxluqatilə bəzəyib və zinətləndiribdir. Gözəl səhralar və çəmənlər, könül xoşlandıran güllər və çiçəklər, qəlbi

şad edən mənzərələr, böyük meşələr, uca dağlar, əqli heyran edən dənizlər və sular, qisim-qisim heyvanlar və quşlar, göyün üzündə həddən ziyadə yıldızlar yaradıb. Heç bir məxluqatın üzərinə pərdə çəkməyibdir… həmçinin Adəm övladına Allah taala əmr etməyibdir ki, onun gözəl məxluquna baxmaqdan gözlərini yumsunlar...”

Müəllif, “Məsəla, yaxşı meyvə ağacı ola. Hər kəs onu görsə bitəbii mail olar. O meyvəyə tamaşa etməyə mümkün qədər səy edər. Əgər o bağın möhkəm hasarı olsa, heç kəs o meyvəni görməz, onu ələ keçirmək fikrində olmaz” – deyə hicabla bağlı belə bir müqayisə aparan Tiflisin şiə məzhəb qazısı Mövlazadə Məhəmmədhəsəni tənqid edərək, soruşurdu: “Bizim hasar və divar içində qalıb çürüməyimizdən kimə nə fayda ola bilər? Gözəl meyvə ağacını hasarda saxlamaq lazımdır, yoxsa vətən övladına tərbiyə verib halal ilə haramın fərqini bildirməkmi lazımdır?” Osmanlı imperiyasında geniş vüsət almış “Gənc Türk” inqilabi hərəkatından təşvişə düşmüş çar qüvvələri Ağaoğlunu təqib etməyə başlayırlar. Təqib və mümkün həbslər səbəbindən 1908-ci ilin sonlarında İstanbula köçməli olur. Qardaş Türkiyədə gedən sosial-ictimai proseslərə biganə qalmayan Əhməd bəy tezliklə bu proseslərə aktiv şəkildə qatılır. Türk Ocağı türk milli hərəkatının aparıcı siması olan Ağaoğlu bu hərəkatın keçirilmiş konqresinə prezident seçilir.

1909-cu ilin Oktyabrında İstanbul Darülfünunda müəllimliyə başlayır. Bu dövrdə Əhməd bəyin türkçülük ideyaları onun fəaliyyətinin əsas istiqamətinə çevrilir.

1915-ci ildə Osmanlı Məclisi Məbusanına (Millət Məclisi) Afyon nümayəndəsi olaraq daxil olan Əhməd bəy eyni zamanda İttihad və Tərəqqi təşkilatının “Mərkəzi Ümumisinin” üzvü olmuşdur.

1918-ci il Azərbaycanda ilk müstəqil, demokratik cümhuriyyətin qurulması xəbərini sonsuz sevinclə qarşılayan Əhməd bəy elə həmin il vətənə qayıdır və yenicə qurulmuş, Şərqin ilk müsəlman demokratik dövlətinin möhkəmlənməsi naminə geniş fəaliyyətə başlayır. Milli Məclisə üzv seçilən Əhməd bəy Ağaoğlu 1919-cu ildə Paris Sülh Konfrasında Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak edir.

Azərbaycanda Şura hökuməti qurulduqdan sonra Əhməd bəy yenidən Türkiyəyə, bu dəfə Ankaraya köçməli olur. Türkiyədə jurnalist və siyasi fəaliyyətini davam etdirən Əhməd bəy mətbuat bürosunun direktoru, Türkiyənin "Hakimiyyəti-Milliyə" qəzetinin baş redaktoru və müasir Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün yaxın məsləhətçisi kimi geniş fəaliyyət dairəsində çalışmışdır. Birinci dünya müharibəsinin axırında ingilislər tərəfindən Maltaya sürgün edilmişdir. Əhməd bəy Ağaoğlu 1939-cu ildə Türkiyədə vəfat etmişdir.

*III iştirakçı Azərbaycanlı pedaqoq, siyasətçi, hərbçi Yusif Ziya Talıbzadə haqqında məlumat verir.*

***III iştirakçı:*** Öz əvəzedilməz ictimai fəaliyyəti ilə tanınan adamlardan biri də Yusif Ziya Talıbzadədir. Yusif Ziya Talıbzadə 1877-ci ildə Tiflisdə anadan olmuşdur. O, 1899-cu ildə Bakıya gəlmiş, Nəriman Nərimanovla, Hacı Zeynalabdin Tağıyevlə yaxınlaşmış və fəaliyyətə başlamışdır.

1900-cü ildə Bakıda, "rus-tatar" məktəbinə şəriət müəlimi təyin olunduqdan sonra Azərbaycan dilinin qrammatikasına aid "Təhsili-qəvaid" (1901) adlı o zaman üçün qiymətli bir kitab çap etdirir, həmin dövrdə N.Nərimanovun "Nadir şah"ını fars dilinə çevirir. Əsrin əvvəllərində milli mətbuatın "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Yeni Füyuzat", "Şəlalə" kimi

orqanlarında “Axund Yusif Talıbzadə” imzası ilə məqalələri çap olunur. İslam dini məsələlərinə dair 10-dan artıq kitabçası da bu dövrdə çapdan çıxmışdır. Yusif Ziya bədii ədəbiyyatla da maraqlanmışdır, milli ruhda şeirlər yazmış, “Ərmənusə” və “Əmir Xalid” faciələri 10-cu illərdə səhnəyə qoyulmuşdur. 1907-ci ildə Quranın Azərbaycan türkcəsində nəşr edilmiş üç cildlik nüsxəsini Türkiyə soltanı II Əbdülhəmidə hədiyyə aparmağı Hacı Zeynalabdin Tağıyev Yusif Ziyaya etibar etmişdir. 1910-cu ildə o, Türkiyəyə getmiş və bu münasibətlə “Türkiyə məktubları” nı çap etdirmişdir.

1911-ci ildə Müsavat partiyasının yaranmasında fəal iştirak edən ilk üzvlərdən olmuşdur. 1912-ci ildə Türkiyəyə köçərək hərbi təhsil almış, Balkan müharibəsində, Birinci dünya müharibəsində, Kars-Ərdəhan cəbhəsində türk ordusu sıralarında ruslara, ermənilərə qarşı qəhrəmanlıqla vuruşmuş, 1918-ci ildə türk ordusunun tərkibində yenidən Bakıya qayıtmışdır. Demokratik Azərbaycan Cümhuriyyətinin siyasi həyatında qızğın fəaliyyət göstərmişdir. 1919-cu ildə Osmanlı dövləti nümayəndə heyətinin başçısı kimi Təbrizə getmiş, orada həmkarları ilə Cənubi azərbaycanlıların azadlıq mübarizəsini dəstəkləyən “İttihadi-islam” cəmiyyətini yaratmışdır. Qızıl Ordunun Azərbaycanı istilasından sonra Azərbaycan-İran sərhəddində tutulsa da, Moskvanın razılığı, N.Nərimanovun zəmanəti ilə azad olunaraq Naxçıvana hərbi komissar təyin edilmişdir. Lakin erməni daşnaklarının Naxçıvan torpaqlarına qarşı iddialarına tərəfdar münasibət bəsləyən Sovet hökumətinin siyasətinə etiraz əlaməti olaraq ailəsi ilə bərabər Bakıya qayıtmış, N.Nərimanovun köməkliyi ilə buraxılış vəsiqəsi alaraq Türküstana yola düşmüşdür. Türküstanda basmaçılar hərəkatına qoşularaq qırmızı rus ordusuna qarşı vuruşmalarda iştirak etmiş,

basmaçılar hərəkatının başçısı Ənvər paşanın müavini olmuşdur.

Y.Z.Talıbzadə 1923-cü il may ayının 18-də Qızıl Ordu ilə döyüşlərin birində ağır yaralanmış, Amu-Dərya çayını üzüb keçərkən boğularaq həlak olmuşdur.

*IV iştirakçı "İsiqlal yolçusu" adlı çıxışında Fətəli xan Xoyski haqqında çıxış edir.*

***IV iştirakçı:*** Fətəlixan İsgəndər oğlu Xoyski – Azərbaycanlı siyasi xadim, Rusiya imperiyası II Dövlət Dumasının deputatı, Zaqafqaziya Komissarlığı nəzdində xalq maarif komissarı, Zaqafqaziya Demokratik Federativ Respublikasının ədliyyə naziri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra ilk baş naziri və daxili işlər naziri təyin edilmişdir, bundan başqa AXC-nin hərbi naziri, ədliyyə naziri və xarici işlər naziri vəzifələrində çalışmışdır.

Fətəli xan Xoyski 1875-ci il dekabrın 7-də Nuxa şəhərində anadan olmuşdur. Fətəli Xan Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. O, 1897-ci ildə 1-ci dərəcəli diplom ilə universiteti bitirdi və həmin ilin avqustunda Tiflis məhkəmə palatasının böyük sədrinin əmri ilə Yelizavetpol dairə məhkəməsi yanında məhkəmə vəzifələri üçün kiçik namizəd təyin olundu.

Zaqafqaziya seymi buraxıldıqdan sonra, 1918-ci il mayın 27-də artıq keçmiş Zaqafqaziya seyminin müsəlman fraksiyası üzvləri yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclasını çağırdılar. Yığıncaq Cənubi Qafqazın şərqi ərazilərin idarə olunmasını öz üzərinə götürmək qərarına gəldi, və özlərini Zaqafqaziya müsəlmanlarının Müvəqqəti Milli şurası adlandırdılar. Milli şuranın yanında 9 nəfərdən ibarət icraçı orqan yaradıldı, onun vəzifəsi respublika həyatının müxtəlif

sahələri üzrə planların həyata keçirilməsi idi. F. Xoyski icraiyyə orqanının sədri seçildi.

Ertəsi gün Milli şuranın ilk iclası keçirildi: Seymin buraxılması, Gürcüstanın müstəqilliyini elan etməsi və Azərbaycanın vəziyyəti onun gündəliyində əsas bəndi idi. Şuranın bəzi üzvləri Azərbaycanın müstəqilliyinin elan edilməsinin tərəfdarı idilər, Fətəli-xan Xoyski, öz növbəsində, yerlərdə bəzi məsələlərin aydınlaşdırılmasına qədər tamhüquqlu hökumətin yaradılması ilə kifayətlənmək və Azərbaycanın müstəqilliyini elan etmədən digər ölkələrlə danışıqlara başlamaq təklifini vermişdi. Nəticədə iki nəfər bitərəf qalmaqla 24 səslə Şura Azərbaycanı dərhal müstəqil demokratik respublika elan edilməsi barədə qərar qəbul etdi. Fətəli-xan Xoyski Müvəqqəti hökumətinin tərkibini açıqladı və orada hökumət başçısı və daxili işlər naziri vəzifələrini tutdu. Mayın 30-da Nazirlər Şurasının sədri F.X.Xoyski Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi barədə bir sıra xarici işlər nazirlərinə radioqram göndərdi. Radioqramın mətni belə idi:

“Konstantinopol, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristiyaniya, Kopenhagen

Xarici işlər nazirinə

Gürcüstanın çıxması və Zaqafqaziya Federativ Respublikasının dağılması ilə Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətini elan etmişdir. Azərbaycan Respublikası yaradılmışdır. Deyilənləri nəzərinizə çatdıraraq, zati-alinizdən bu barədə hökumətinizə xəbər vermənizi rica edirəm. Milli hökumət müvəqqəti olaraq Yelizavetpol şəhərində yerləşir.

İmza Fətəli xan Xoyski, Azərbaycan Respublikası Nazirlər Şurasının sədri".

Sovet hakimiyyəti qurulduqdan sonra Fətəli xan Xoyski Tiflisə köçdü, orada 19 iyun 1920-ci ildə qətlə yetirildi, qatillər "Daşnaksütun" partiyasının üzvləri Aram Erkanyan və Misak Qriqoryan idilər, onlar Tiflisdəki İrəvan meydanında Fətəli xan Xoyskiyə arxadan atəş açdılar. İndiki Tbilisi botanika bağının ərazisində yerləşən köhnə müsəlman qəbiristanlığında dəfn edilmişdir. Onun dəfn mərasimini Tiflisdəki İran konsulluğu həyata keçirmişdir.

***Rəsm müsabiqəsi*** – Cümhuriyyətimizin yüzilliyi ilə əlaqədar və eyni zamanda oxucuları maarifləndirmək adına kitabxanada müxtəlif tədbirlərdən biri olan "rəsm müsabiqəsi" keçirilə bilər. **"Cümhuriyyət fırçamızda"** adlı müsabiqədə məktəblilər bu yolda mübarizə aparan tarixi şəxsiyyətlərimizin, bununla bərabər bayraq, gerb və digər dövlət atributlarının və s. rəsmini çəkirlər. Münsiflər tərəfindən fərqləndirilən rəsm əsərləri divardan asılır və iştirakçılar mükafatlandırılır.

Kitabxanada mövzu ilə bağlı müxtəlif tədbirlər keçirilməsi məqsədəuyğundur. Oxucuları maarifləndirmək adına kitabxanaçı məktəblərlə birgə mütəmadi tədbirlər keçirir. Belə ki, kitabxanaçı daimi oxucularla bir həftə ərzində **"İstiqlala gedən yol"** adlı **divar qəzeti** hazırlayır. Əvvəlcə oxucular bu mövzudan bəhs edən ədəbiyyatlarla tanış olub, məlumat toplayırlar. Hər oxucu bu mövzuda öz fikrini divar qəzetində qeyd edir və slayd hazırlayır. Ən yaxşı rəy bildirən, slayd hazırlayan oxucu kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır. Qəzet bu səpkidədir:

*Sən bizimsən, bizimsən, durduqca bədəndə can,*
*Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!..*

28 May bu gün tariximizə Respublika günü kimi daxil olmuşdur. Xalqımız hər il bu günü böyük təntənə ilə bayram edir. Çünki həmin gün – 1918-ci il mayın 28-də bütün müsəlman Şərqində birinci olaraq bizim vətənimizdə demokratik respublika yaranmış, xalqımız azadlığa çıxmışdır.

1917-ci ilin fevralında Rusiyada xalq çarı devirdi. Oktyabr ayında isə burada Sovet dövləti adlanan bir dövlət yaradıldı. Bundan bir qədər sonra Zaqfqaziya Sovet Rusiyasından ayrıldı, müstəqil respublika elan edildi. Lakin bu hökumətə daxil olan Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri arasında birlik yox idi. Ona görə də tezliklə dağıldı.

Əvvəlcə Azərbaycanın Müvvəqqəti Milli Şurası yaradıldı. Xalqımızın böyük oğlu Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri seçildi. Milli Şura 1918-ci il mayın 28-də axşam saat 8-də on dəqiqə işləmiş Azərbaycanın azadlığa çıxdığını elan etdi. Azərbaycanın istiqlalını, yəni azdlığını bəyan edən bu sənəd tarixdə "İstiqlal bəyannaməsi" adlanır. "İstiqlal bəyannaməsi" ndə Azərbaycan həmin gündən 1918-ci il mayın 28-dən etibarən müstəqil dövlət elan olundu. Demokratik bir dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti dünyada Azərbaycan Demokratik Respublikası (ADR) kimi tanındı.

Tariximizə Respublika günü kimi daxil olmuş 28 Mayın oxuculara təbliğini artırmaq məqsədilə görüləcək tədbirlərdən biri də ***sərgi ətrafında söhbət*** adlanır. Sərgi hər hansı məktəbdə keçirilə bilər. Sərgidə Həmin dövrləri əks etdirən kitablar, Cümhuriyyətimizlə bağlı əsərlər, Azərbaycanın istiqlalı yolunda mübarizə aparan dahi şəxsiyyət Məhəmməd Əmin Rəsulzadənin kitabları və eləcə də onun mübariz həyat yolunu qələmə alan ədib və tarixi şəxsiyyətlərin kitabları yer almaqdadır. Həmin kitablar bunlardır: Məmməd Əmin Rəsulzadənin "1903-1909-cu illəri əhatə edən çoxcildli kitabı", "Əsrimizin Səyavuşu",

“Azərbaycan cümhuriyyəti”, “Milli birlik” bu kitablarla yanaşı, Yaqub Mahmudovun “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası” adlı II cildli kitabı, Azər Turanın “Əli bəy Hüseynzadə” adlı kitabı, Alxan Bayramoğlunun “Azərbaycan Demokratik Respublikası Dövründə Ədəbiyyat” adlı kitabı, Nazif Qəhrəmanlının “Nəsib bəy nümunəsi” adlı kitabı və s. Kitabxanaçı gələn qonaqları kitablarla yaxından tanış etdikdən sonra Azərbaycanın milli istiqlal hərakatının ideoloqu və lideri, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin yaradılması işinə başçılıq etmiş görkəmli ictimai-siyasi və dövlət xadimi, istedadlı alim, jurnalist və publisist Məhəmməd Əmin Rəsulzadənin ömür yolundan, dönməz mübariz hərakatından söhbət açır. O, eyni zamanda bu dahi şəxsiyyəti tarixə şanlı səhifələr yazmaqla bərabər, ədəbiyyatımıza olan töhfələrindən də söhbət açır.

***Kitabxanaçı:*** Əlbəttə ki, Məhəmməd Əmin Rəsulzadə ədəbiyyətşünas kimi ədəbiyyatımızda da özünəməxsus imzası ilə yaddaşlardadır. Məhəmməd Əmin Rəsulzadə yaradıcılığa XX əsrin əvvəllərində başlamışdır. Məhəmməd Əmin Rəsulzadə qələmini ədəbi tənqid və ədəbiyyatşünaslığın bir çox janrlarında sınamışdır. Əslində onun üçün konkret bir janr mövcud olmamış, hürriyyət və istiqlal ideyasını yaymaq üçün bütün ədəbi vasitələrdən istifadə etmişdir.

Məhəmməd Əmin Rəsulzadənin şeirlərində olduğu kimi, dram əsərlərində də azadlıq uğrunda mübarizəyə cəlb etmək istədiyi əsas təbəqə geniş xalq kütləsi idi. Onun çağırış pafosu əhalinin bu zümrəsi üzərində köklənirdi. Bu da təsadüfi deyildi. Çünki əsil dramaturgiya ilə məşğul olanlar belə bir həqiqəti əsas götürürdülər ki, “ədəbiyyatın bütün forma və janrları birinci növbədə oxumuş, savadlı adamlar üçün yazıldığı halda, səhnə əsərləri hamı üçün yazılır”. Yəni oxumağı və yazmağı bacarmayanlar da ona baxıb faydalana bilərlər. XX əsrin əvvəllərində inqilabi situasiyaların burulğan bir dövründə

Məhəmməd Əmin Rəsulzadə də bu həqiqəti dərk etmiş və 1910-cu ilə qədər bir-birinin ardınca hələlik bizə məlum olan “Nagəhani bəla”, “Qaranlıqda işıqlar”, “Acı bir həyat” kimi bir neçə maraqlı pyes yazmışdır.

Xalq Cümhurriyyətinin yaradılması vətənimizin şimalında Azərbaycan dövlətçiliyinin bərpası yolunda ən böyük tarixi hadisə idi. Cümhurriyyət dövründə torpaqlarımızın bütövlüyünün qorunması sahəsində böyük işlər görülməsinə baxmayaraq, daxildə bolşevik-daşnak qrupları Xalq Cümhurriyyətinin fəaliyyətinə maneəçilik törətməyə çalışırdılar. Xarici hərbi müdaxiləçilərin və daxildə antiazərbaycan siyasəti yeridənlərin birliyi nəticəsində Şərqdə, Türk və İslam dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhurriyyəti süqut etdi.

*Kitabxanaçının dəyərli məlumatlarından sonra tarix müəllimləri Məhəmməd Əmin Rəsulzadənin həyatı və mübariz yolu haqqında məlumat verirlər.*

***I müəllim:*** Məhəmməd Əmin Rəsulzadə Azərbaycanlı dövlət və ictimai xadimi, siyasətçi və publisist, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və Azərbaycan siyasi mühacirətinin liderlərindən biri idi. Azərbaycan tarixinin ən görkəmli və böyük şəxsiyyətlərindən olub, Azərbaycan milli istiqlal hərəkatına başçılıq etmişdir. Onun “Bir kərə yüksələn bayraq, bir daha enməz!” ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının şüarı olmuşdur.

Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Din xadimi olan atası oğlunu məşhur pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci “Rus-müsəlman” məktəbinə qoymuş, buranı bitirdikdən sonra M.Ə.Rəsulzadə öz təhsilini Bakı texniki məktəbində, rus dilində davam etdirmişdir. Azərbaycan milli

istiqlal hərəkatının və təkcə türk ellərində deyil, bütün islam aləmində ilk respublika üsul-idarəsi olan Azərbaycan Demokratik Respublikasının təməl daşını qoyan Məhəmməd Əmin Rəsulzadənin inqilabi fəaliyyətinin ilk illəri də məhz bu dövrə təsadüf edir. 1902-ci ildə on yeddi yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman Gənclik Təşkilatı"nı yaratmışdır. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

***II müəllim:*** 1923-ci ildə İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti" kitabı çap edilir. "Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik" kitabları çap edilir. 1923-27-ci illərdə onun redaktorluğu ilə İstanbulda "Yeni Qafqasya!" jurnalı nəşrə başlayır, ancaq Moskvanın tələbi ilə kamalist hökumət jurnalı bağlayır və Rəsulzadə Avropaya getməyə məcbur olur, Varşava və Berlində yaşayır.

M.Ə.Rəsulzadə 1928-ci ildə İstanbulda "İnqilabçı Sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və Bolşevizm" və "Qafqasya türkləri" kimi əsərlərini çap etdirmişdir. Həmin ildə onun redaktorluğu ilə "Azəri türkü" (1928-1931), sonra isə "Odlu yurd" (1929-1930) jurnalları və həftəlik "Bildiriş" (1929-1931) qəzeti də nəşr edilməkdə idi. 1930-cu ildə M.Ə.Rəsulzadənin Parisdə fransız dilində "Azərbaycan və istiqlaliyyəti" və rus dilində "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kitabları çap olundu. 1931-ci ildən M.Ə.Rəsulzadənin mühacirət dövrü Avropa ölkələrində davam edir. Onun redaktorluğu ilə Berlində ayda üç dəfə nəşr edilən "İstiqlal" (1932-1934) qəzeti və "Qurtuluş" (1934-1938) jurnalı çap edilirdi.

1933-cü ildə M.Ə.Rəsulzadənin Berlində çap olunan "Azərbaycan respublikası haqqında bəzi qeydlər" adlı kitabı da

böyük maraq doğurur. M.Ə.Rəsulzadə həm də görkəmli ədəbiyyatşünas idi. Onun 1936-cı ildə Berlində "Çağdaş Azərbaycan ədəbiyyatı" məqaləsi çap edilmişdir. 1938-ci ildə Berlində alman dilində "Azərbaycan problemi" və 1939-cu ildə Varşavada polyak dilində çıxmış "Azərbaycanın hüriyyət savaşı" kitablarının adlarını çəkməmək olmaz. O, 1938-ci ildən Polşa hökumətində məsləhətçi işləmiş, sonralar 1940-cı ildən Rumıniyada yaşamışdır. Onun 1943-cü ildə İstanbulda nəşr olunmuş "İslam-türk ensiklopediyasının" 1-ci cildində "Azərbaycan ləhcəsi" adlı məqaləsi çap edilmişdir. 1947-ci ildən Ankaraya köçən M.Ə.Rəsulzadənin 1949-cu ildə "Azərbaycanın kültür kələnkləri" adlı kitabı işıq üzü görmüşdür. Onun "Çağdaş Azərbaycan ədəbiyyatı" (1950-ci il) və "Çağdaş Azərbaycan tarixi" (1951-ci il) kitabları həmin illərdə M.Ə.Rəsulzadənin məhsuldar işlədiyini göstərir. O, 1951-ci ildə Ankarada "Azərbaycan şairi Nizami" adlı sanballı monoqrafiyasını çap etdirməklə dünya nizamişünaslığına bir çox yeniliklər gətirmişdir.

Həmin ildə M.Ə.Rəsulzadənin Nyu-Yorkda ingilis dilində nəşr olunan "Ukrayna" toplusunun 1951-ci il 3-cü nömrəsinin 7-ci cildində "Azərbaycan respublikası" məqaləsi çap edilmişdir. Londonda ingilis dilində nəşr olunan Britaniya ensiklopediyasında "Müsavat partiyasının yaranması tarixi və Azərbaycan Demokratik Respublikasının təşəkkülünə aid" məqalə də onun qələmindən çıxmışdır. İkinci dünya müharibəsindən sonra Türkiyədə nəşr edilməkdə olan Türk ensiklopediyasında Azərbaycana aid məqalələrin bir çoxu M.Ə.Rəsulzadə tərəfindən yazılmışdır. Ankarada yaşadığı dövrdə o, "Türk tarix qurumu" və "Türk dili qurumu" ilə yaxından əməkdaşlıq etmişdir. 1952-ci ildən Ankarada nəşr olunan "Azərbaycan" jurnalında xalqımızın tarixi və ədəbiyyatı

haqqında silsilə məqalələri yerləşdirilmişdir. Təkcə buradan M.Ə.Rəsulzadənin heyrətamiz yaradıcılığına bələd olmaq olar. O, İkinci dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan “Qafqaz” (1932-1938) və fransızca buraxılan “Prometey” (1928-1939) jurnallarında öz məqalələri ilə çıxış etmişdir. Onun 1920-ci ildən sonra işlətdiyi açıq və gizli imzalardan “Məhəmməd Əmin Rəsulzadə”, “Yalvac oğlu”, “Məhəmməd Əmin”, “M. Əlif Rəsulzadə” və s. qeyd etmək olar.

***III müəllim:*** Rəsulzadə ömrünün sonlarına yaxın 1951-ci il 26 avqust, 1952-ci il, 1953-cü il 28 may olmaqla Azərbaycan xalqına 3 dəfə müraciət etmişdir.

Mən Məhəmməd Əmin Rəsulzadə “Amerkanın Səsi” radiosundan danışıram. Həsrətini çəkdiyimiz əziz Vətənə xitab edə bilmək üçün buna mütəşəkkirəm. Bu radio Birləşik Amerika Dövlətlərinin parlaq tarixini yaradan demokrasi fikirlərini yayır. Bu fikirlər başlıca 2 əsasa dayanır: İnsanlara azadlıq, millətlərə istiqlal!

“Bundan 33 il əvvəl Birinci Dünya hərbinin sonunda çarlıq rejimi çöktü; Vətənimizi istila və istibdadı altında tutan Rusiya İmperatorluğu dağıldı. Azərbaycanlılar illərdən bəri gözlədikləri fürsəti ələ keçirdilər: milli və müstəqil bir Cümhuriyyət qurdular...

Demokratiyanın bu yüksək əsaslarını həyata keçirmək üçün qurulan milli hökümət iki il yaşadı. Tariximizin ən şanlı dövrünü təşkil edən bu qısa müddətdə, hərbdən və hərc-mərcdən çıxan yurdumuzda əmniyyət və asayiş bərpa edildi. Lazım olan zabit və ədalət müəssəsələri qurtuldu. Sosial reformlara girişildi. Milli maarifə əhəmiyyət verildi. Mədəniyyət dünyası ilə təmasa gəlindi. Qonşularla yaxşı münasibətlər təsis olundu. Nəticədə Böyük Avropa dövlətləri və Birləşik Amerika tərəfindən Cümhuriyyətimizin istiqlalı tanındı; Lenin və Stalinin imzaları

ilə müsəlman millətlərinə sözdə hürriyyət və istiqlal vəd edən bolşeviklər işdə türk və müsəlman dünyasında qurulan ilk cümhuriyyəti Qızıl Ordunun üstün qüvvələri ilə zorladılar. Xalqımız təcavüzə qarşı var qüvvəti ilə savaşdı; fəqət, heyhat məğlub oldu. Nəticədə milli ordunu dağıtdılar, milli ziyalıları kəsdilər, milli sərvəti yağma edərək Moskvaya götürdülər. Bir sözlə məmləkəti sovetləşdirdilər.

Tarixin ən qəddar bir istibdadını quran bolşeviklər sovet rejiminə utanmadan demokratiya deyirlər. Sovetlərlə həqiqi demokratiya arasında yerdən göyə qədər fərq vardır, vətəndaşlar!

Əziz Azərbaycanlılar! Bütün dünyadan əlaqəniz kəsilmiş və təklənmişsiniz. Ətrafınızda sizi xarici aləmdən ayıran dəmir bir pərdə vardır. Başınız min bir bəla və fəlakətlər içindədir. Bu bəlalı və fəlakətli yaşayışı bolşevik propaqandaçıları sizə ideal bir həyat kimi qələmə verirlər. Sovetlər xaricində qalan dünyadakı həyatı fəlakətdən və səfalətdən ibarət bir həyat kimi təsvir edirlər. İnanmayınız qardaşlar! Dünyada asudə yaşayan, qorxu bilməyən azad insanlar, azad millətlər və müstəqil dövlətlər vardır. Bu millətlərin yaşadıqları məmləkətlərdə insanın nə fikrinə, nə vicdanına, nə də imanına təsəllüd edən yoxdur. Azad insanların birliyindən ibarət olan müstəqil millətlər öz-özlərini idarə edirlər.

Azadlıq və milli istiqlal prinsiplərini bundan 175 il əvvəl Amerika, 33 il əvvəl də Azərbaycan bəyannaməsi elan etmişdilər. Bütün dünyanın səadəti kimi Azərbaycanın xilası da bu əsasların tamamilə gərçəkləşməsinə bağlıdır. Təkrar edirəm – İnsanlara azadlıq, Millətlərə istiqlal!

***Dəyirmi masa*** – Cümhuriyyətin 100 illiyi ilə əlaqədar olaraq, kitabxanada *“Cümhuriyyət dövrünün milli mətbuatı və ya təzadlar dövrünün ziyalıları”* adlı *dəyirmi masa* keçirilə bilər.

Bunun üçün kitabxanaçı məktəblilərə bu gün haqqında məlumat verir. Tədbirin keçiriləcəyi zaman və məkan haqqında iştirakçılara əvvəlcədən məlumat verilir.

**I iştirakçı:** Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi qısa vaxt ərzində ölkədə bir çox sahələrin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Şərqdə ilk demokratik respublikanın qurucuları xalqımızın ən öndə gedən ziyalıları və maarifçiləri olmuşlar. Onlar xalqın ümumi tərəqqisinin təminatına, demoktratik cəmiyyətin formalaşmasına və müstəqil dövlətin sosial-siyası əsasların möhkəmləndirilməsinə çalışmışlar. Xalq Cümhuriyyəti 23 ay ərzində, həqiqətən, xalqa xidmət etdiyini təsdiqləmişdi.

Tədqiqatçıların qənaətinə görə Azərbaycan mətbuatı tarixinin 1918-1920-ci illəri bütün əvvəlki dövrlərə nisbətən özünün ən yüksək inkişaf mərhələsini keçmişdir. Bu dövrün mətbuatı həm keyfiyyət, həm də kəmiyyət baxımından milli mədəniyyətin mühüm tərkib hissəsi kimi Azərbaycan həyatının canlı salnaməsinə çevrilmişdir. İki il ərzində ölkədə 100-ə yaxın müxtəlif adda qəzet və jurnal çapdan çıxmışdır. Cümhuriyyət dövrü mətbuatının səciyyəvi xüsusiyyəti təkcə onun say göstəricisində deyildi, həm də ideya-məzmun zənginliyində idi. Millətə aid siyasi mətləblərin milli mətbuat və milli məktəbdən uzağa getmədiyi bir zamanda milli mətbuatın fəaliyyəti milli məfkurənin formalaşmasında aparıcı rol oynadı.

1918-1920-ci illər mətbuatını tədqiqatçılar ideya istiqaməti baxımından bir neçə yerə bölmüşlər: Azərbaycan Xalq Cümhuriyyəti ideyalarını təbliğ edən milli mətbuat, cümhuriyyət hökumətinə müxalifətdə olan bolşevik mətbuatı, bolşevik mətbuatı ilə müxalifətdə olan eser-menşevik mətbuatı ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün canfəşanlıq edən erməni daşnak mətbuatı,

özünü bitərəf adlandıran və heç bir siyasi partiyaya mənsub olmayan informatik xarakterli qəzetlər, jurnallar. Lakin bu istiqamətlər içərisində daha realı və geniş oxucu auditoriyasına malik olanı Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını təbliğ edən və dəstəkləyən mətbuat idi. Cümhuriyyət dövründə Bakıda, Gəncədə, Şuşada, Tiflisdə, İrəvan və digər inzibati mərkəzlərdə çıxan mətbuat nümunələri təkcə Azərbaycan dilində deyil, rus, gürcü, erməni, polyak, fars, alman və qeyri dillərdə nəşr edilirdi.

**II iştirakçı:** Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, dövlət xadimləri, ideoloqları milli mətbuatımızın təməlini qoyan mütəfəkkirlər idi. İstiqlalçılıq, dövlətçilik, cümhuriyyətçilik fikrən milli mətbuatımızda təbliğ olunurdu. Məhz mətbuat dinamikasında siyasiləşən, proqramlaşan ideyanın gerçəkləşməsi oldu. AXC "Əkinçi"dən qidalanan, "Ziya", "Kəşkül", "Şərqi Rus", "Molla Nəsrəddin", "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Kaspi", "İqbal", "Açıq söz", "Dirilik", "Təkamül", "Hümmət" və digər mətbuat orqanları ilə cilalanan milli məfkurənin əməli təntənəsi oldu. Cümhuriyyətin banilərindən M.Ə.Rəsulzadə siyasi mübarizəsini "Şərqi Rus", "Hümmət", "Təkamül", "Dirilik", "Açıq söz"də xalqına anladırdı və ardınca səsləyirdi. Əlimərdan bəy Topçubaşovun redaktorluğu dövründə "Kaspi" nin məzmunu siması dəyişdi. İsmayıl bəy Qaspıralı, Həsən bəy Zərdabi düşüncəsinə köklləndi. Həsən bəy Ağayev Gəncədə çıxan "Yujni Kafkaz" qəzetinin redaktoru olmuş, maarifçilik ideyalarını yaymışdır. Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə mütləqiyyət caynağından qopan ilkin fürsətdə mətbuatımızın "ağır artilleriyası" oldular.

Azərbaycan Xalq Cümhuriyyəti mətbuatının həqiqi sələfləri sırasında "İqbal" qəzetinin xüsusi çəkisi vardır. Azərbaycan Cümhuriyyəti bəyan ediləndə milli dövlətin mətbuatı artıq

zəngin, ciddi, peşəkar təcrübəyə malik idi. Təqib və təzyiqlər altında yaydıqları fikirləri indi açıq şəkildə daha ucadan deyə bilərdilər. Həm də dövlətin dəstəyi, himayəsi sayəsində milli mətbuat yeni inkişaf mərhələsinə daxil olunurdu.

**III iştirakçı:** Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" (1918-1920), "İstiqlal" (1918-1920), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq", (1917-1919), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-1919), "Zənbur" (1919) və s. kimi milli ruhlu mətbuat orqanları işıq üzü görmüşdür.

Azərbaycan milli istiqlaliyyətini elan etdikdən sonra milli mətbuatın qarşısında da yeni vəzifələr dururdu. Ona görə də hökumət və parlament mətbuatın və nəşriyyatın işini dövrün tələbləri səviyyəsində qurmaq üçün bir sıra qərarlar qəbul etmişdi. 1919-cu il oktyabrın 30-da parlament tərəfindən mətbuat məsələlərini tənzimləyən ayrıca sənəd – Mətbuat haqqında Nizamnamə qəbul olunmuşdu. Hökumət həmin ilin aprel tarixli qərarına əsasən, nizamnamə layihəsini hazırlamaq Ədliyyə nazirliyinə tapşırılmışdı. Lakin iyunun 20-də hökumət Daxili İşlər Nazirliyinin təqdim etdiyi qanun layihəsini bəyənmiş və onu parlamentin müzakirəsinə çıxarmışdı. Nizamnamə söz və mətbuat azadlığı prinsipinə əsaslanırdı. Sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır.

Mətbuat azadlığına yekdilliklə tərəfdar çıxan parlament üzvləri qanun layihəsini ən ciddi sənədlərdən biri hesab edirdilər. Bununla belə, layihənin hər üç oxunuşu qızğın müzakirələrlə keçmişdi. "Hümmət" partiyası və sosialist fraksiyası layihənin əleyhinə çıxmışdılar və bildirmişlər ki, mətbuatı heç bir qanunla məhdudlaşdırmaq olmaz. Nizamnamə

demokratiya və müstəqil dövlətçilik prinsiplərinə ziddir. Maddələrin ayrı-ayrılıqda müzakirəsi zamanı mətbuata ümumi nəzarət və rəhbərlik haqqında, redaktorun təbəəliyi, təhsil, mətbəə yaradılmasına icazə verilməsi barədə maddələr geniş diskussiya doğurmuşdu.

Cümhuriyyət hökuməti mətbuat azadlığı, milli şüurun, milli mədəniyyətin inkişafı üçün mühüm şərtlərdən biri hesab edirdi. Məlumdur ki, Xalq Cümhuriyyəti yaranana qədər çar Rusiyası tərkibində olan Azərbaycanda mətbuat azadlığı yox idi. Ana dilində yazıb-oxumaq böyük maneələrlə qarşılaşır, qəzet və jurnallar ciddi senzuraya məruz qalırdı. Belə bir rejim milli şüurun, milli mədəniyyətin inkişafına ağır zərbə vururdu. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 9 noyabr tarixli sərəncamı ilə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarəti ləğv olunmuşdu.

O dövrdə əsas vəzifə Xalq Cümhuriyyətini qoruyub saxlamaqdan, daxili və xarici təhlükələrə qarşı ideoloji mübarizə aparmaqdan ibarət idi. Yeni vəzifələri həyata keçirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə özünü rəsmi orqanı olan "Azərbaycan" qəzetini nəşr etdirməyə başlamışdı. Qəzetin müxtəlif vaxtlarda redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar. Cümhuriyyətin ictimai-siyasi, iqtisadi və mədəni təsisatların tarixi mənzərəsi bu qəzetdə geniş əksini tapmışdır.

**IV iştirakçı:** Milli siyasi birliyə çağırış Cümhuriyyət dövründə bütün Azərbaycan mətbuatının başlıca şüarına çevrilmişdi. 1918-ci il martın 31-də Bakıda, habelə Azərbaycanın müxtəlif bölgələrində erməni-daşnak və rus-bolşevik qara güruhçuları tərəfindən türk-müsəlman əhalisinə qarşı törədilən kütləvi soyqırımları da milli mətbuatın başlıca mövzusu idi. Həmin

vaxtlarda “Açıq söz” qəzeti yazırdı: “Dəhşətli saat gəlir, birlik gərəkdir”. Qəzet Azərbaycan xalqının siyasi partiyalarını xarici irticaya qarşı birliyə çağırırdı. Milli mətbuatın şüurları oyatmaq fəaliyyəti, apardığı maarifçilik təbliğatı yaxınlaşmaqda olan dümən təxribatının ifşasında böyük rol oynayırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin həftəlik qəzeti olan “İstiqlal”ın da bu istiqamətdə fəaliyyəti xüsusi qeyd olunmalıdır. Bakıda nəşr olunan qəzetin ilk nömrəsi 1919-cu il fevralın 4-də, son nömrəsi 1920-ci ilin aprelin 23 də (cəmi 42 nömrə) çıxmışdır.

1919-cu il martın 11-də nəşrə başlayan “Övraqi-nəfisə” jurnalı ədəbiyyat və incəsənətdən bəhs edən ilk dövri mətbuat orqanı idi. 1919-cu ilin mart-avqust aylarında Bakıda cəmi 6 nömrəsi nəşr edilmiş jurnalın redaktoru Əlabbas Müznib, naşiri bəstəkar Zülfüqar bəy Hacıbəyli, rəssamı Əzim Əzimzadə idi. Jurnalda F.Köçərli, Abdulla Şaiq, Zülfüqar Hacıbəyli, Əmin Abid, Məhəmməd Hadi və s. müəlliflər çıxış edirdilər.

Həmin illərdə Azərbaycanda milli ideyalı “Şeypur” jurnalı da nəşr olunmuşdur. İlk nömrəsi 1918-ci il oktyabrın 5-də çıxmış “Şeypur”un naşiri Səməd Mənsur, redaktoru Məhəmmədli Sidqi idi.

1920-ci ilin əvvəlində nəşrə başlamış “Qurtuluş” jurnalı ədəbi-mədəni sahədə xeyli iş görmüş, Azərbaycan xalqının milli mədəniyyətinin təbliğində mühüm rol oynamışdır. Qətiyyətlə deyə bilərik ki, AXC dövrünün milli mətbuatı bütün bu tarixi mübarizələrinin önündə olmuş, salnaməsini yazmışdır. Milli mətbuatımız bu tarixin təkcə yol yoldaşı olmadı, bu tarixi yaratdı, ona mübarizlik ruhu verdi, müstəqil dövlətçiliyin bərpasına qovuşurdu.

**V iştirakçı:** Çağdaş milli mətbuatımız təməli, ənənəsi fəxarət doğuran bir məktəbin yetirməsidir. Peşəkarlıq prinsiplərini

yüksək tutan sanballı jurnalistlər ordusuna Şeyx Xiyabani öyüdünü yada salmaq yersiz olmaz: "Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir".

Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, müstəqilliyimizin qazanıldığı illərdə də mətbuat milli dövlət quruculuğu prosesində ön mövqedə dayandı. Odur ki, istər əsrin əvvəlində, istərsə də sonunda Azərbaycan milli mətbuatının uğurları birbaşa istiqlal düşüncəsi, dövlət müstəqilliyi ilə bağlıdır.

Milli jurnalistikamızın bu taleyüklü dövrünün mətbuatı bu gün də bütün incəliyinə, detallarına qədər öyrənilməli, təhlil olunmalı və dəyərini almalıdır.

***Viktorina*** – Kitabxanada Cümhuriyyətimizin 100 illiyi ilə bağlı müxtəlif tədbirlər keçirilməsi məqsədəuyğundur. Oxucuları maarifləndirmək adına kitabxanaçı kitabxanalarla birgə məktəblərdə də mütəmadi tədbirlər keçirməlidir. Belə tədbirlərdən biri *də "Gələcək tariximizi bilən gəncliyimizin əlindədir"* adlı **viktorinadır.** Belə tədbirlər oxucuların yaddaşını artırmaq və cümhuriyyətimizlə bağlı bilgilərini gücləndirmək məqsədi daşımaqdadır. Viktorinaya cəlb olunan məktəblilər əvvəlcədən bir həftə ərzində şanlı tariximizlə bağlı kitabxanaya gələrək məlumat toplayırlar. Zalda cümhuriyyətimizlə bağlı sərgi təşkil olunur. Kitabxanaçı ilk olaraq sərgidə yer alan bu mövzudan bəhs edən kitablar haqqında məlumat verdikdən sonra cümhuriyyətlə bağlı sualları iştirakçılara təqdim edir. Suallarla sizləri tanış edirik:

**Sual 1.** Cümhuriyyətimizlə bağlı hansı kitabları oxumusunuz?

Cavab: Lətif Şüküroğlunun "Cümhuriyyət hökuməti Respublikası məngənəsində", "Azərbaycan Xalq Cümhuriyyət Ensiklopediyası", Dilarə Seyidzadənin "Azərbaycan XX əsr əvvəllərində müstəqilliyə aparan yollar", "Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat", Nazif Qəhrəmanlının "Nəsib bəy nümunəsi" və s.

**Sual 2.** Cümhuriyyət dönəmində Azərbaycanın səhiyyə naziri kim idi?

Cavab: Mayın 28-də Fətəli Xan Xoyskinin rəhbərliyi ilə Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yaradıldı. Cümhuriyyət Hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar oldu. Nazir vəzifəsində 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyov təyin edildi (O, görkəmli şairəmiz Nigar Rəfibəylinin atası idi).

**Sual 3.** Cümhuriyyətdən sonra mühacirət həyatı yaşayan şəxsiyyətlərdən bir neçəsini sadalayın.

Cavab: Ceyhun Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Yusif Ziya Talıbzadə və s. istiqlal yolçularını sadalamaq olar.

**Sual 4.** 1918-ci ildə qəbul olunmuş hansı qərara əsasən bu gün də Azərbaycan Respublikası bütün dünyada müstəqil olaraq tanınır?

Cavab: Paris Sülh Konfransı zamanı, 1920-ci il 11 yanvarda Azərbaycanın müstəqil dövlət kimi tanınması haqqında qərar qəbul olunur. İstiqlalın tanınması xəbərini üç gün sonra alan Azərbaycan xalqı bu günü bayam edir.

**Sual 5.** 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Yaranması Günü ilə əlaqədar müstəqilliyimizi neçə ölkə tanıdı?

Cavab: AXC qısa müddət ərzində çox böyük uğurlara imza atdı. Azərbaycan dünyanın 23 böyük dövləti tərəfindən rəsmən tanındı və 114 min kv. kilometrlik ərazidə öz hakimiyyətinin təmini istiqamətində tədbirlər aldı.

**Sual 6.** Görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin bu gün də hər bir azərbaycanlının devizinə çevrilmiş fikirlərindən bir neçəsini sadalaya bilərsinizmi?

Cavab: 1. Bir kərə yüksələn bayraq bir daha enməz! 2. İnsanlara hürriyyət, millətlərə istiqlal! 3.İstiqlal verilməz, alınar! 4. Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlallardadır.

**Sual 7.** Bakıda Azərbaycan Dövlət Bankı nə vaxt və hansı səbəbdən yaradıldı?

Cavab: Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq artmaqda olan idxal-ixrac əməliyyatları və ödənişləri tənzimləmək üçün 1919-cu ilin sentyabr ayının 30-da Bakıda təntənəli surətdə Azərbaycan Dövlət Bankı yaradıldı və kredit bankları açıldı. Bu mərasimdə məşhur xeyriyyəçi H. Z.Tağıyev demişdi: "Bizim bank haqqında tezliklə Avropada biləcəklər". 1919-cu ilin oktyabrın 25-də kredit bankları və şəhərlərdə əmanət kassaları fəaliyyətə başladı.

**Sual 8.** Hansı sənəd "İstiqlal bəyannaməsi" adlanır?

Cavab: Milli Şura 1918-ci il mayın 28-də axşam saat 19:10-da Azərbaycanın azadlığa çıxdığını elan etdi. Azərbaycanın istiqlalını, yəni azadlığını bəyan edən bu sənəd tarixdə "İstiqlal bəyannaməsi" adlanır.

**Sual 9.** Nəyə görə Azərbaycan müstəqillik əldə etdikdən sonra müstəqil Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyəti (respublika) adlandırıldı?

Cavab: 1918-ci il 28 maydan etibarən müstəqil dövlət elan olundu. Burada bildirildi ki, müstəqil Azərbaycan dövləti Xalq Cümhuriyyəti (respublika) şəklində idarə olunacaqdır. Bu, o

deməkidi ki, Azərbaycan Xalq Cümhuriyyətini Azərbaycan xalqının seçdiyi adamlar idarə edəcəkdi. Elə buna görə də, müstəqil Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyəti (Azərbaycan Xalq Respublikası) elan edildi. Demokratik bir dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti dünyada Azərbaycan Demokratik Respublikası (ADR) kimi tanındı.

**Sual 10.** İlk dəfə üçrəngli bayraq ideyasını kim gündəmə gətirib?

Cavab: İlk dəfə üçrəngli bayraq ideyasını Əli bəy Hüseynzadə gündəmə gətirmişdir.

**Sual 11.** Bayrağımızın rəngləri nəyi təmsil edir?

Cavab: Mavi rəng Azərbaycan xalqının türk mənşəli olması, türkçülük ideyası ilə bağlıdır, Qırmızı rəng müasirliyimizi, yəni müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirməsi deməkdir. Yaşıl rəng isə islam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

**Sual 12.** Bayraq üzərində aypara nəyin simvoludur?

Cavab: Bayraq üzərində aypara türk xalqlarının simvoludur.

**Sual 13.** Səkkizguşəli ulduz barədə fikrinizi əsaslandırın.

Cavab: Səkkizguşəli ulduz Azərbaycan sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Əski əlifbada Azərbaycan 8 hərflə yazılır.

**Sual 14.** Bu il Cümhuriyyətimizin neçə yaşı tamam olur?

Cavab: Cümhuriyətimiz 100 yaşındadır və Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 100 illiklə bağlı Sərəncam imzaladı və bu ili cümhuriyyət ili elan etdi.

**Sual 15.** Azərbaycan Xalq Cümhuriyyəti neçə müddət yaşadı və devrilməsinə səbəb nə oldu?

Cavab: Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Belə ki, 1918-ci il 28 may ayında yaranan müstəqillik 1920-ci il aprelin 28-də Rusiyanın 11-ci ordu hissələri Azərbaycan sərhədini keçib ölkəmizi işğal etdi. Parlament dinc əhali

arasında qan tökməmək üçün hakimiyyəti Azərbaycan bolşeviklərinə təslim etmək tələbini verdilər. Beləliklə, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti devrildi.

**Sual 16.** Cümhuriyyətin tarixi ilə bağlı hansı sənədli filmləri sadalaya bilərsiniz?

Cavab: "Nuri-didə Ceyhun" Əli Əmirlinin pyesi əsasında və s.

**Sual 17.** Bakı Dövlət Universitetinin əsası nə zaman qoyuldu?

Cavab: Bakı Dövlət Universitetinin təsis olunması haqqında qanun 1919-cu ilin 1 sentyabrında tərtib edildi və bununla milli təhsil ocağının əsası qoyuldu.

**Sual 18.** Milli muzeyimizin adı nə idi və neçənci ildə yaradıldı?

Cavab: Milli muzeyimiz – "İstiqlal" muzeyi 1919-cu ildə yaradıldı.

**Sual 19.** 1918-ci ildə Bakı uğrunda həlak olan ingilis əsgərləri haqqında nə bilirsiniz?

Cavab: Bakı uğrunda həlak olan ingilis əsgərlərini hazırda Şəhidlər Xiyabanı ərazisində olan yerdə basdırıblar. Fotolarda əks olunan dəfn mərasimində ingilis bayrağına bürünmüş cənazələrin gətirildiyi və xristian ənənələri ilə dəfni əks olunur. Görünür ki, bura Çəmbərəkənd qəbiristanlığının katolik-lüteranların dəfn olunduğu tərəfdir. Hazırda bu yerdə "Alov Qüllələri" yerləşir. Şəhidlər Xiyabanı ərazisində isə Bakının ələ keçirilməsi uğrunda həlak olmuş ingilis əsgərlərinin xatirə lövhəsi var.

"Gələcək tariximizi bilən gəncliyimizin əlindədir" adlı viktorinanın sualları iştirakçılar tərəfindən yazılı şəkildə cavablandırıldıqdan sonra münsiflər tərəfindən dəyərləndirilir. Suallara ən dolğun və səlis şəkildə cavab verən iştirakçı "Cümhuriyyət davamçıları" adlı medala layiq görülür və final mərhələsinə vəsiqə qazanır. Daha sonra hər bir sualın cavabı

iştirakçılar və qonaqlara slayd şəklində daha dolğun və ətraflı şəkildə təqdim edilir.

***Ədəbi-bədii gecə*** – Tariximizin şanlı səhifəsi olan 28 May Respublika Günü ilə əlaqədar olaraq kitabxanada ***"Azadlığn mübarək"*** adlı *ədəbi-bədii gecə* də keçirilə bilər.

*İlk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səslənir, alqış sədaları altında üçrəngli bayrağımız salona gətirilir və bu mövzuya həsr olunmuş slayd verilir.*

***I aparıcı:*** Salam dəyərli qonaqlar, tədbir iştirakçıları! 28 May Respublika günü ilə əlaqədar şanlı tarix dolu qan yaddaşımızdan qopub gələn ədəbi-bədii gecəmizə xoş gəlmisiniz... Xalqımız hər il bu günü böyük təntənə ilə qeyd edir. Çünki həmin gün – 1918-ci il mayın 28-də – Gülüstan və Türkmənçay müqavilələrindən sonra müstəqilliyini itirən, yüz ildən artıq müstəmləkə şəraitində yaşayan, mədəniyyəti, dili, dini sıxışdırılan Azərbaycan azadlığa çıxmışdır. 1918-ci il mayın 28-də "İstiqlal bəyannaməsi" ndə Azərbaycanın müstəqil dövlət olduğu elan edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman şərqində yaranmış ilk demokratik respublikası idi.

***II aparıcı:*** Əldə edilmiş bu azadlıq xalqımızın böyük mübarizəsinin, onun böyük oğlu Məhəmməd Əmin Rəsulzadə başda olmaqla görkəmli ziyalılarımızın təfəkkürünün bəhrəsi idi. Müstəqilliyimizi qoruyub saxlamaq üçün ciddi tədbirlər görüldü. Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət başçısı Fətəli xan Xoyski 1918-ci il mayın 30-da teleqrafla bütün dünya ölkələrinə Azərbaycanın müstəqil olması xəbərini elan etdi. İyun ayının 4-də qardaş Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsi bağlanaraq, Osmanlı dövlətindən hərbi yardım alındı. Beləliklə də 1918-ci il iyunun 26-da Azərbaycanın milli ordusu yaradıldı. Azərbaycan dili dövlət dili elan edildi. Üçrəngli – göy, qırmızı, yaşıl bayrağımız yaradıldı.

Türk-müsəlman şərqində ilk dəfə bizim ölkəmizdə qadınlara seçib-seçilmək hüququ verildi. Xalqımızın savadlanması üçün məktəblər, yaşlılar üçün savad kursları, türk olmayan xalqlar üçün türk dilli kurslar açıldı. 1919-cu ildə ən böyük ali təhsil ocağı Bakı Dövlət Universiteti açıldı. Məktəblər üçün dərsliklər yazılır, kitabxanalar açılır, onlarla qəzet və jurnal nəşr olunurdu. Milli muzeyimiz – "İstiqlal" muzeyi yaradıldı. Bütün bunlar hamısı qısa sürmüş müstəqillik zamanı əldə edilmiş uğurlar idi.
***I aparıcı:*** Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Ölkəmizə əsən şimal küləyi müstəqilliyimizi təhlükə altında qoydu. Azərbaycanın müstəqillik qazanması ilə barışa bilməyən Sovet Rusiyası 1920-ci il aprelin 27-də 11-ci ordunu ölkəmizə yeridərək müstəqilliyimizə son qoydu. Təəssüflər olsun ki, uzun mübarizdən sonra bərpa edilmiş müstəqillik tezliklə itirildi. Onun süqutundan sonra Sovet imperiyasının 70 illik əsarəti dövrü başladı. Lakin xalqımız müstəqillik uğrunda mübarizəni davam etdirdi. Bu mübarizədə çoxlu şəhidlər verdik. 1991-ci ildə müstəqilliyimizi yenidən əldə etdik. Xalqımızın başına gəlmiş hadisələr, tarix bir daha göstərir ki, xalqın azadlıq əldə etməsilə iş qurtarmır. Xalq öz azadlığını və müstəqilliyini qoruyub saxlamağı bacarmalıdır. Bunun üçün də hər bir insan üzərinə düşən vətəndaş borcunu yerinə yetirməlidir.
***II aparıcı:*** Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün

vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir. Azərbaycan Xalq Cümhuriyyəti xüsusən təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri tədris müəssisələrinin milliləşdirilməsi oldu.
***I aparıcı:*** Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

İstiqlal dövrü milli teatr sənətinin, poeziyanın, dramaturgiyanın, ümumiyyətlə, incəsənətin inkişafında çox mühüm və maraqlı bir dövrdür. 1918-ci ilin oktyabrında Bakıda Hacıbəyli qardaşları tərəfindən teatr truppası yaradılmışdır. Azərbaycan hökuməti türk teatr truppasını öz himayəsinə almışdır. Ümumiyyətlə, istiqlal dövrü teatrın inkişafında əsaslı keyfiyyət dəyişiklikləri, dövlətin teatr sənətinə fəal yardımı teatrın cəmiyyətin həyatında rolunu artması ilə əlamətdardır.
***II aparıcı:*** Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Lakin Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və

suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.

Biz bu gün də Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, onun görkəmli şəxsiyyətlərinin fəaliyyətini dərindən öyrənməli, ideyalarını təbliğ etməli, təcrübəsindən bəhrələnməliyik. Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır.

İstiqlal, o yaşayan millətin qəlbində can,
İstiqlal, o səadət, həyat, zəfər, şərəf, şan,
İstiqlal, o sönməyən müəbbəd bir məşalə,
Könüllərdə tutuşur, gözlərdə sönsə belə.

# Əlavələr

**Əlavə 1**

**Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin açılışındakı tarixi nitqi.**

Möhtərəm millət vəkilləri, Azərbaycan Milli Cümhuriyyətini, siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfini öhdəmə düşməsi ilə fəxr edirəm. Əfəndilər, Rusiyada zuhur edən böyük inqilab digər həqiqətlər arasında bir böyük həqiqəti də elan etmişdi. Bu həqiqəti millətlərin hürriyyət və istiqlal hüquqları idi. Rusiya inqilabı təbiətində mövcud olan ruha sadiq qalaraq təbii yolu ilə inkişaf etsəydi, millətlərin hüququnun təmini ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyanı bir an əvvəl təsis edəcəkdi. O vaxt təbii idi ki, Rusiyada yaşayan müsəlmanların siyasi həyatları digər məhkum millətlərlə bərabər başqa bir yolda cərəyan edəcəkdi. Millətlər öz müqəddəratlarının təyinini səmimi bir surətdə Rusiya müəssisan məclisindən gözlədilər. Fəqət, Rusiyada inqilab və demokratizm namina zuhur edən bir istibdadın nə kimi xərabəliklər yaratdığını bilirsiniz. İnqilab namına hökmfərma olan anarxiyadan və millətlərin hüququnun elanından sonra yürüdülən qatı mərkəziyyətçilik Zaqafqaziya millətlərini öz başlarının çarəsinə baxmağa sövq etdi.

Eyni məntiq nəhayət, Azərbaycan əhalisi tərəfindən seçilən vəkillərin şurayi-milli təşkil etmək, bu milli şüura isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu. Əfəndilər, biliniz ki, bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur. Bizar olduğumuz Rusiya çarism Rusiyası istibdadıdır. Rusiya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət deyildir. Bizcə, mənfur olan Rusiya-millətləri əzən və onların hüquqlarını verməyən rəsmi Rusiyadır. Hər millət

müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlərə ürək istədiyi kimi əqdi-ittifaq etməlidir. Bütün dünya millətlərinin bir “Millətlər Cəmiyyəti” vücuda gətirməsi bizim ən müəzziz fikirlərimizdəndir. Bu “federasyon” cəbrlə deyil, təbii bir meyil və arzu ilə hasil olmalıdır. Ərz etdim ki, biz Rusiya camaatının da düçar olduğu fəlakətlərdən qurtulmasını ürəkdən istəyirik. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyıq. Çünki Qafqaz dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyid qala bilmərik. Biz Rusiyanın səadətini sevirik. Fəqət öz istiqlalımızı da hər şeydən əziz tuturuq. Cəbr ilə qəbul edilən bir şeydə qətiyyən səadət olmaz, çünki səadət hürriyyət və istiqlaldadır. Elə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç rəngli bayrağı Milli Şura ucaltmışdır. Türk hürriyyəti, İslam mədəniyyəti və çağdaş demokratik fikri təmsil edən bu üç rəngli bayraq daima başımızın üstündə ihtizaz edəcəkdir. Mən buna inanıram. Mənim bu inamımı millətlərin qəlbində doğmuş olan əməl günəşi işıqlandırır. Bu günəş bir daha sönməyəcək. Mən vicdani-bəşəriyyətə inanıram. Milyonlarla insan bahasına vicdani-bəşər qazandığı həqiqətləri asanlıqla əlindən verə bilməz. Millətlər cəmiyyəti fikri bu gün hər kəs tərəfindən qəbul edilmiş fikirdir. Buna qüvvətlə inanıram ki, artıq milləti öldürmək, millətin qürurunu ayaqlar altında tapdalamaq qətiyyən mümkün deyildir. Qaliblər də, məğlublar da millətlərin hüququnu təmsil etməlidirlər. Yaxınlarda açılacaq ümumi sülh konfransında bu fikir tam hakim olmalıdır, olacaqdır. Biz azərbaycanlılar bütün mövcudiyyətimizi və öz istiqlalımızı müdafiə və mühafizə etməkdə israr edir, səbat göstərərək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti paidar olar. Fəqət bunun üçün, təkrar edirəm, səbat, mətanət, fədakarlıq lazımdır. Gərək

biz istiqlala layiq olduğumuzu isbat edək ki, kimsə haqqımızı bizə təslim etməmək cəsarəti göstərməsin. O hansı vicdandır ki, istiqlal istəyən və ona layiq olduğu sübut edən bir milləti qəhr etsin. Qafqaz millətlərinin ruhunda hər zaman hürriyyət və istiqlal fikri hakim olmuşdur. Hürriyyət fikrinin təmsilçisi olan Prometey Qafqaz dağlarında zəncirbənd edilmişdir. O, daima zəncirlərini qırmağa çalışırdı. Prometeyin ruhu Qafqazın bütün millətlərində vardır. Qafqazın millətlərinin istiqlalı və müstəqil yaşamaları uzaq bir xəyal deyildir. Qardaş millət olan Şimali Qafqaz, qapıbir qonşumuz ermənilər, bütün cuziyyata baxmayaraq daima səmimi qalan gürcülər, bizə bir çox mədəni xidmətləri toxunan rus camaatının mühüm bir qismi ilə əl-ələ verərək Qafqazın müqəddaratını bu qitədə yaşayan millətlərin arzusu vəchilə təmin edə bilərik. Əfəndilər, mən buraya qədər sizə ümidli sözlər söylədim. Fəqət nəzərlərinizi əhvalın ağırlığına cəlb etməzsəm, vəzifəmi tam yerinə yetirməmişəm deməkdir. Zaman ağır, gedəcəyimiz yol çox təhlükəli və kələ-kötürdür. İrəlidə bir çox müşkilat və maniələri də gözə almalıyıq. Bu maniəli yolları keçmək və arzu etdiyimiz hədəfə çatmaq üçün millətə səbat, mətanət nümunəsi göstərməlisiniz. Bu nümunəni göstərəcək iqtidara və istedada oldunuzsa, demək, yolun yarısı keçirilmişdir. Əfəndilər, bu gün partiya ehtirasları, şəxsi qərəzliklər atılmalı, Vətən qayğısı və millət duyğusu hər şeydən yüksək tutulmalıdır. Bu gün Azərbaycan paytaxtında məclisi-məbusanı açırıq. Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman öz sinəsində bir müqəddəs atəş bəsləməlidir. Bu atəş keçmiş zamandan bəri həqiqətpərəstlər üçün rəhbər, bir ümid şöləsi və iman olmuşdur. O atəş ki, bu gün də dövlət və zənginliyin, mədəniyyətin səbəbidir. Qoy bu atəş sönməz bir məşəl kimi milyonlarla ürəyə dolub hürriyyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın.

**Əlavə 2**

**Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan, Hürriyyət və İstiqlal haqqında söylədiyi fikirlər:**

Haqq verilməz, alınar! Budur, türk inqilabının təsdiq etdiyi əski həqiqət!

***

Böyük dünya müharibəsi böyük Rusiya inqilabını doğurdu. Böyük Rusiya inqilabı isə millət hüququnu bütün genişliyi ilə meydana atdı.

***

Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər məruzələrə rast gəldik, nə qədər töhmətlərə məruz qaldıq. Azərbaycan muxtariyyəti deyirdik: soldan və sağdan hər növ hücuma məruz qalırdıq. Biz, Azərbaycan torpaqlarını qızdıran atəşi-müqəddəsi köksümüzdə bəsləmək istəyirik: bizə Moskvada yanacaq “məşəli” nişan veriyorlardı. Biz elmə, mədəniyyətə öz dilimizin, mədəniyyətimizin ruhu, rəngi ilə pərvərdə edilmiş bir millət çıxarmaq istəyirik: bizə Ərəbistanı göstəriyorlardı.

***

İnsanlara hürriyyət, millətlərə istiqlal!

***

Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlallardadır.

***

Kommunizm nə yaparsa, yapsın, Rusiya imperializmi hankı rəngə girirsə-girsin meydanda bir həqiqət var: millətlər

kəndilərini tanımışlar. Kommunizm rejimi süqut etmək məcburiyyətindədir.

***

Şərq millətlərinin xilas və nicatına aid şüarlar ilə bolşeviklər sözdə millətlərin hüququna, hürriyyətinə və istiqlalına hörmətkardırlar. İşdə isə digər imperialistlərdən heç də fərqli deyildirlər.

***

Dünya inqilabat və müharibələrində axan qanlar daima yeni məfkurələrin tövlidinə səbəb olmuş deyilmidir?

***

Azərbaycanın bu qədər fəlakətlər nəticəsində əldə etdiyi bir qazanc varsa, o da bu istiqlal fikrinin rusuxudur. Şimali istiqlal və hakimiyyəti-milliyyə sevdası ilə yaşayan bir Azərbaycan gəncliyi vardır ki, Çekanın amansız edamlarına rəğmən, gecə-gündüz çalışıyor, ilk fürsət və imkanı bəkləyib duruyor. Bu fürsət gəlincə, o meydanə çıxacaq və o zaman yanıq könlündə atəşin gizgilərlə mənən mənquş (nəqş) bulunan bayrağı maddətən yüksəldərək deyəcək: Bir kərə yüksələn bayraq bir daha enməz!

**Əlavə 3**

## Şərqdə ilk demokratik parlamentdən

Gürcüstan Zaqafqaziya seymindən çıxdıqdan bir gün sonra, 1818-ci il mayın 28-də Tiflisdə-Azərbaycan Milli Şurası yaradıldı və onun müstəqillik haqqında qətnaməsi qəbul olundu. Qətnamədə deyilirdi: "Bu gündən etibarən Azərbaycanda yaşayan xalqlar suveren hüquqlara malikdir. Zaqafqaziyanın şərqindən və qərbindən olan Azərbaycan isə tam hüquqlu dövlətdir. Müstəqil Azərbaycanın siyasi quruluşu demokratik respublika formasında təsis olunur. Azərbaycan Demokratik Respublikası beynəlxalq ünsiyyətdə olan bütün ölkələrlə, xüsusilə həmsərhəd xalqlar və ölkələrə dostluq münasibətləri saxlamağa səy göstərir. ADR milliyyətindən, dinindən, ictimai vəziyyətindən asılı olmayaraq bütün vətəndaşları öz hüquqları daxilində vətəndaşlıq və siyasi hüquqlarla təmin edir. Ərazisində yaşayan bütün xalqlara azad inkişaf üçün geniş imkanlar verir". Parlament çağrılana qədər hökumət bir sıra vacib qərarlar – Dövlət dilinin türk dili olması, Azərbaycan bayrağının təsdiqi, hökumət tərəfindən çap edilən qanunlar və onların xaricdə yaşayan azərbaycanlılar arasında yayılması, xaricə getmək istəyənlərə pasport verilməsinin sadələşdirilməsinin və s. aid idi. Həmin qərarlar əhali arasında ruh yüksəkliyi, məmnunluq doğurmuşdu. Böyük dramaturq Cəfər Cabbarlının "Azərbaycan bayrağına" adlı şeiri iftixarla səslənirdi.

Bu ay, ulduz boyaların qurultayı nə demək:
- Bizcə böylə söyləmək!
Bu göy boyda moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı, yaşıl boya islamlığın,
Sarsılmayan nişanı, ürəklərə dolmalı
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!

## Ədəbiyyat siyahısı

**Ağaoğlu Ə.** Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2007. - 392 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

**Ağaoğlu Ə.** Sərbəst insanlar ölkəsində. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2001. - 80 s.

**Akalıın G.** Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. - Bakı : AzAtam, 2004. - 164 s.

**Andriyanov V.** Heydər Əliyev. - Bakı : Nurlan, 2008. - 560 s. - (Görkəmli Adamların Həyatı : bioqrafik silsilə ; 1205 (1005) buraxılış).

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və zaman. I hissə : 1923-1969. - Bakı : Ozan, 2007. - 352 s.

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və zaman. II hissə : 1969-1982. - Bakı : Ozan, 2007. - 784 s.

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə : 1982-1990. - Bakı : Ozan, 2009. - 804, [48] s.

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və Zaman : həyat və fəaliyyətinin xronikası. IV hissə : 1969-1989. – Bakı : Ozan, 2008. – 328 s.

**Azərbaycan 1994. Milli** dövlətçilik sınaq qarşısında : I hissə. - Bakı : [s. n.], 2002. - 472 s.

**Azərbaycan tarixi** : 7 cilddə. VII cild : 1941-2002-ci illər. - Bakı : Elm, 2008. - 608, [80] s. - (Azərbaycan dili və tarixi).

**Azərbaycan Xalq Cümhuriyyəti** Ensiklopediyası : 2 cilddə. I cild. - Bakı : Lider nəşriyyatı, 2005. - 440 s.

**Azərbaycan Xalq Cümhuriyyəti** Ensiklopediyası : 2 cilddə. II cild. - Bakı : Lider nəşriyyatı, 2005. - 472 s.

**Azərbaycan Xalq Cümhuriyyətinin** xarici siyasəti : sənədlər məcmuəsi. - Bakı : "Garisma" MMC, 2009. - 352 s. : portr.

**Əfəndiyev T.** Heydər Əliyev mədəniyyət və əbədiyyət = Heydar Alıyev Culture and eternity : siyasət - Bakı : Təhsil, 2013. - 128 s.

**Əhmədova S.** Heydər Əliyevin dil siyasəti : monoqrafiya. - Bakı : İncə nəşriyyat evi, 2010. - 231 s.

**Əkbərov R.** Azərbaycanın dövlət və hüquq tarixi : qədim, orta əsrlər və müasir dövrdə. - Bakı : Qanun, 2009. - 604 s.

**Əliyev Q.** Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s.

**Əliyev T.** Azərbaycanı dünyaya tanıdan Böyük İnsan : Heydər Əliyev-90. - Bakı : Oğuz Çap, 2013. - 226 s.

**Həmzəoğlu R.** Heydər Əliyev və Azərbaycan təhsili. - Bakı : Vektor, 2007. - 300 s.

**Həsənova M.** Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi. - Bakı : Elm, 2001. - 80 s.

**Heydər Əliyev -** müstəqil Azərbaycanın neft emalı sənayesinin banisidir = Heydar Aliyev is the founder of oil refining industry of independent Azerbaijan. - Ankara : [s. n.], 2003. - 145 s.

**Heydər Əliyev mədəni** irsimizin keşiyində. I kitab. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 439 s.

**Heydər Əliyev mədəni** irsimizin keşiyində. II kitab. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 456 s. : rəngli şək.

**Heydər Əliyev və** mədəni irs = Heydar Alıyev and cultural herıtage. - Bakı : [s. n.], 2014. - 200 s. - Azərbaycan və ingilis dillərində. - (albom)

**Heydər Əliyevin dil** siyasəti : rəsmi sənədlər. - Bakı : Şirvannəşr, 2009. - 133 s.

**Heydər Əliyevin Neft** Strategiyası. Azərbaycanın Müstəqillliyi və Rifahı Naminə. I hissə. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 496 s.

**Hüseynova L.** Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri : Müstəqillik dövrü. - Bakı : Təhsil, 2011. - 216 s.

**İbrahimov İ.** Vətəndaş və tarix : Tarixin olaylarında. - Bakı : Qanun, 2009. - 720 s.

**Mahmudov Y.** Heydər Əliyev ideyalarının zəfər yürüşü. - Bakı : Təhsil, 2011. - 608 (548+60) s.

**Mehdiyev R.** Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi. - Bakı : Azərbaycan Milli Ensiklopediyası, 2001. - 276 s.

**Mehdiyev R.** Vətəndaş cəmiyyətinə yol açan ideyalar. - Bakı : CBS Polygraphic production, 2006. - 583 s.

**Mirəhmədov Ə.** Əhməd bəy Ağaoğlu. - Bakı : Ərgünəş, 2014. - 264 s.

**Mirələmov H.** Amalın işığında : publisistik düşüncələr, portret cizgiləri, müsahibələr. - 272 s.

**Mirələmov H.** Bir günəş var : tarixi-publisistik düşüncələr. - Bakı : Səda, 2004. - 240 s.

**Mirələmov H.** Həqiqət : publisistik düşüncələr. - Bakı : Azərbaycan, 2003. - 448 s. : rəngli foto

**Mirələmov H.** Millətin atası : publisistik düşüncələr, tarixi esselər, məktublar. - Bakı : Azərbaycan, 2004. - 288 s.

**Mirzə V.** Azərbaycan dövlətçiliyinin qoşa qanadı. II kitab. - Bakı : Təhsil, 2006. - 344 s.

**Mirzəyev R.** Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. - Bakı : [s. n.], 2001. - 124 s.

**Mirzəzadə R.** Azərbaycanı dünyaya tanıdan insan : məqalə və müsahibələr. - Bakı : Göytürk, 1998. - 346 s.

**Müstəqillik** dövrünün dramaturgiyası : Teatr dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri. - Bakı : Nağıl evi, 2005. - 216 s.

**Müstəqillik yolunda yanan** işıqlar. - Bakı : Təhsil, 2004. - 342 s.

**Müstəqilliyimizin memarı**. I kitab. - Bakı : Yazıçı, 2010. - 296 s.

**Nazimoğlu R.** Azərbaycan millətinin əvəzolunmaz lideri. - Bakı : Araz, 2006. - 104 s.

**Orucov H.** Heydər Əliyev və Azərbaycanda milli siyasət. - Bakı : Şərq-Qərb, 2002. - 172 s.

**Qasımlı M.** Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2006. - 608 s.

**Qəhrəmanlı N.** Nəsib bəy nümunəsi : Məktublar, məqalələr, çıxışlar və haqqında yazılar. – Bakı : Nurlan, 2008. – 263 s. – Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyinə həsr olunur.

**Quliyeva N.** Müstəqillik illəri Azərbaycan ailəsi. – Bakı : Elm, 2006. – 93 s.

**Rəsulzadə M.** Əsərləri : 5 clddə. - Bakı : Təhsil, 2014. - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqinda" 22 noyabr 2013-cü il tarixli Sərəncamına əsasən çap olunmuşdur.

C. 1 : 1903-1909. – 480 s.

C. 2 : 1909-1914. – 528 s.

C. 3 : 1915-1916. - 613 s.

C. 4 : 1917-1918. – 416 s.

C. 5 : 1918-1920. – 439 s.

**Rəsulzadə M.** Əsərləri. - Bakı : Qələm, 2013. - 464 s.

**Rəsulzadə M.** Milli birlik. - Bakı : Çıraq, 2009. - 176 s.

**Seyidov Ə.** Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası : dərs vəsaiti. - Bakı : UniPrint, 2009. - 256 s.

**Seyidzadə D. A**zərbaycan XX əsrin əvvəllərində. Müstəqilliyə aparan yollar. - Bakı : OKA ofset, 2004. - 348 s.

**Sofiyev X.** Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu. - Bakı : Ocaq, 2004. - 240 s. : foto.

**Şüküroğlu L.** Cümhuriyyət hökuməti repressiya məngənəsində. I cild. - Bakı : Şirvannəşr, 2000. - 296 s. : foto. - Azərbaycan dilində.

**Şükürov S.** Millət atası. - Bakı : Təhsil, 2000. - 208 s.

**Yaqublu N.** Bakının qurtuluşu : (Bakının qurtuluşunun 90 illiyinə). - Bakı : Adiloğlu, 2008. - 256,[48] s.

**Yaqublu N.** Məhəmməd Əmin Rəsulzadə (1884-1955) : Azərbaycan Xalq Cümhuriyyətinin banisi. Azərbaycan Milli Qurtuluş Hərəkatının ideoloqu = Mehemmed Amin Rasulzade : Founder of Azerbaijan Democratic Republic/ Ideologist of Azerbaijani National Liberation Movement. - Bakı : Mütərcim, 2014. - 104 s. - Azərbaycan və rus dillərində.

**Yaqublu N.** Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. - Bakı : "OL" MMC, 2013. - 506 s.

# **İnsanlara hürriyyət, millətlərə istiqlal!**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 33
Çapa imzalanmışdır: 23.04.2018
Tirajı:100
Pulsuz